# QARABAĞ AZƏRBAYCANDIR!

# ELM НАУКА

Qüvvət elmdədir...

Nizami Gəncəvi

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Орган Президиума Национальной академии наук Азербайджана

№ 39 (1301) ❖ Cümə, 12 noyabr 2021-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Ali Baş Komandan İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxış edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərinə səfərə gəliblər və bir sıra tədbirlərdə iştirak ediblər. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edib.**

Əvvəlcə dövlətimizin başçısı hərbçiləri salamlayıb və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini və Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib. Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

"Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir", - deyə dövlət başçısı bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları işğalı əbədi etmək isteyirdilər. Onlar hesab edirdilər ki, əgər bizim torpağımızı 30 ilə yaxın işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər. Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq. Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır.

Dövlətimizin başçısı vurğulayıb ki, ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi mənim Prezident kimi başlıca vəzifəm idi və təsadüfi deyil ki, mənim Prezidentlik dövründə dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulurdu. Müntəzəm olaraq hərbi təlimlər keçirildi, məşqlər keçirildi və beləliklə, ordumuzun həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti böyük dərəcədə artdı.

"Biz iqtisadiyyatı gücləndirməli idik və ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq... Biz Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bildik... Digər önəmli amil gənc nəslin tərbiyəsi ilə bağlı idi... Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi", - deyə Prezident İlham Əliyev bildirib. Qeyd edib ki, minlərlə, on minlərlə Azərbaycan gənci, əsgəri, zabiti sinəsini qabağa verərək düşmənə öz yerini göstərdi, düşməni elə vəziyyətə saldı ki, o vəziyyətdən o, əbədi çıxa bilməyəcək. Artıq o, məğlubedilmiş xalq və dövlət damğası ilə əbədi yaşayacaq.

Dövlətimizin başçısı bildirib ki, artıq bu torpaqlarda, bu səmada bu torpaq üçün, bu səma üçün yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək... 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmamışıq. Ermənistan ordusunda 10 min fərari ola-ola, Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmırdı. Bax, budur bizim milli ruhumuz, budur Azərbaycan ruhu.

Prezident İlham Əliyev onu da bildirib ki, biz bütün dünyaya xalqımızın böyüklüyünü müharibə dövründə və müharibədən sonrakı bir il ərzində göstərdik: "Bu yerlərə səfər edən Azərbaycan vətəndaşları, xarici vətəndaşlar gedirlər, məəttəl qalırlar, dəhşətə gəlirlər ki, bu dərəcədə vandallıq ola bilərmi? Bu dərəcədə nifrət ola bilərmi? Bu dərəcədə barbarlıq ola bilərmi? Bunu işğal dövründə ermənilər törədiblər. Bütün binaları sökərək, talayaraq, hətta qəbir daşlarını Ermənistana apararaq bu vəhşiliyi törətdilər. Biz isə müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq, necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq...

Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir".

Çıxışının sonunda dövlətimizin başçısı Azərbaycan xalqını və ordumuzu şanlı bayram münasibətilə bir daha ürəkdən təbrik edib, uğurlar arzulayıb.

Sonra Vətən müharibəsinin iştirakçısı olmuş yüksək rütbəli zabitlər çıxış ediblər.

**Eşq olsun Azərbaycan Ordusuna, eşq olsun Azərbaycan xalqına! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!**

"Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 291) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.4. Peşə təhsili müəssisələrində:

akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91 - 100 bal) olan tələbələrə - 75 manat

akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71 - 100 bal) olan tələbələrə - 60 manat

akademik göstəriciləri "3" - "5" (yüksək texniki peşə təhsili səviyyəsində 51 - 100 bal) olan tələbələrə - 50 manat.";

1.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə, peşə təhsili müəssisələrində əyani təhsil alan tələbələrə isə aralıq qiymətləndirmə nəticələrinə görə bu Sərəncamın 1.2-1.4-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödənilsin.";

1.3. 3-cü hissədə "və 1.4-cü bəndləri" sözləri "bəndi" sözü ilə əvəz edilsin və həmin hissədən "və peşə təhsili müəssisələrinin tələbələrinə" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 noyabr 2021-ci il*



**AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin 8 Noyabr - Zəfər Günü münasibətilə Akademiya əməkdaşlarına təbriki**

səh. 2



**II beynəlxalq Qarabağ - Tətbiqi Elmlər Konqresi**

səh. 3




**"Elmdə Zəfər mükafatı-2021" müsabiqəsinin nəticələri açıqlanıb**

səh. 4



**AMEA prezidenti katibliyinin rəisi: "Antropoloji tədqiqatlar aparılmadan xalqın etnogenezi haqqında danışmaq elmi əsaslardan uzaq bir təşəbbüsdür"**

səh. 8

# AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin 8 Noyabr - Zəfər Günü münasibətilə Akademiya əməkdaşlarına təbriki



Hörmətli həmkarlar!

Zəfər bayramı Azərbaycanın çoxəsrlik dövlətçilik salnaməsinə mərdliyin, cəsarətliyin, düşmən qarşısında əyilməzliyin rəmzi kimi düşmüş, cənab Prezidentin qətiyyətli iradəsi, yüksək komandanlıq bacarığı, xalqımızın həmrəyliyi, ordumuzun rəşadəti və yüksək şücaəti sayəsində Vətən müharibəsi düşmənin kapitulyasiyası ilə nəticələnmişdir.

Ali Baş Komandan İlham Əliyev 2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq müharibənin başlaması ilə bağlı xalqa müraciətində qeyd edirdi: "Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!"

Dövlət başçısının bu çıxışından sonra bütün Azərbaycan, xaricdə yaşayan soydaşlarımız, böyüyündən kiçiyinə, qadınından kişisinə, hər kəs Prezident İlham Əliyevin ətrafında "Dəmir yumruq" kimi sıx birləşdi, bir çox ölkələrin həsəd apardığı, bəlkə də heç bir zaman əldə edə bilməyəcəkləri həmrəyliyi nümayiş etdirən xalqımız Vətən müharibəsinə qalxdı. Xalqımızın birliyini və dəstəyini hiss edən, dualarını eşidən Azərbaycan Ordusu isə düşmənin son 200 ildə davamlı olaraq həyata keçirdiyi soyqırım və terror aktlarına, işğalçılıq siyasətinə cəbhədə elə məharətlə cavab verdi ki, mövqelərini qoyub qaçan, hərbçilərimiz qarşısında tab gətirə bilməyən Ermənistan ordusunun "yenilməz ordu" mifi qısa müddətdə darmadağın edildi. Aşılabilməz sədləri ilə "qürurlanan" düşmən Müzəffər Azərbaycan Ordusunun nəyə qadir olduğunu, vətəni üçün bütün imkanlarını səfərbər edəcəyini, gözünü qırpmadan canından keçəcəyini müharibənin ilk günlərindən son anına qədər öz nəfəsində qorxu ilə hiss etdi.

Heç şübhəsiz, Böyük Qələbəmizin qazanılmasında ulu öndər Heydər Əliyevin hələ SSRİ dövründə peşəkar hərbçilər yetişdirməklə başlatdığı və Prezident İlham Əliyevin məharətlə davam etdirdiyi, müasir texnika ilə təchiz olunmuş ordu quruculuğu siyasəti mühüm rol oynadı. Həmin ordu quruculuğudur ki, bu gün dünyanın aparıcı dövlətlərinin ali təhsil müəssisələrində öyrənilir, xarici ekspertlər tərəfindən araşdırılır, təhlil olunur.

Həmçinin ölkə başçısı müharibənin gedişində ideoloji və informasiya müharibəsində də öz qətiyyətliliyini göstərdi, mütəmadi müraciətləri ilə xalqımıza həqiqətləri çatdırdı, xarici media nümayəndələrinin ikili standartlara uyğun suallarına isə səbrlə, təmkinlə, məntiqi və diplomatik cavablar verərək özünün yüksək idarəçilik və liderlik məharətini bütün dünyaya nümayiş etdirdi.

Vətən müharibəsi dövründə qeyd etdiyim kimi, Prezident İlham Əliyevin adı dövlətçilik salnaməmizə Şah İsmayıl Xətai, Şah Abbas, Nadir şah kimi görkəmli sərkərdələrin adı ilə yanaşı həmişəlik həkk olunacaq. Çünki Prezident İlham Əliyev torpaqlarımızın işğaldan azad edilməsinin memarı oldu, "məğlub xalq" sindromunu sındırdı və bizə unudulmaz Zəfər bəxş etdi.

Qürur hissi ilə deyə bilərəm ki, AMEA kollektivi də Vətən müharibəsində qələbənin qazanılmasına öz töhfəsini vermiş, əməkdaşlarımızdan ixtisaslı zabitlər və könüllülər döyüşlərdə iştirak etmiş, onlardan şəhidlik zirvəsinə ucalanlar və qazilər olmuşdur.

Müharibənin başladığı gün AMEA Rəyasət Heyətinin yaydığı bəyanatda isə bildirilirdi: "Ölkə başçısı cənab İlham Əliyevi və xalqımızı əmin edirik ki, Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi hər zaman olduğu kimi, bu həyəcanlı, məsuliyyətli və şərəfli anlarda da möhtərəm Prezidentimizin, dövlətimizin və ordumuzun apardığı haqlı mübarizəni ürəkdən dəstəkləyir və müdafiə edir".

44 günlük savaşda AMEA-nın elmi müəssisə və təşkilatlarından Silahlı Qüvvələrə Yardım Fonduna 400 min manata yaxın ianə köçürülmüş, Akademiyanın Yüksək Texnologiyalar Parkı və rezidenti tərəfindən ordumuza yuyucu vasitələr, dərman ləvazimatları, dezinfeksiyaedici məhlullar, müxtəlif geyimlər və digər yardımlar edilmiş, o cümlədən əməkdaşlarımız qanvermə aksiyalarında iştirak etmişlər.

Bundan əlavə, alimlərimiz informasiya müharibəsində də fəallıq nümayiş etdirmiş, sosial şəbəkələrdə və beynəlxalq elmi tədbirlərdə düşmənin təxribatlarına qarşı tutarlı cavablar vermiş, xarici təşkilatlara məktublar, bəyanatlar ünvanlamış, Azərbaycanın haqq davası barədə yerli və xarici media nümayəndələrinə müsahibələr vermişlər.

AMEA Qarabağa Böyük Qayıdış prosesində və aparılan yenidənqurma işlərində də yaxından iştirak edir. Belə ki, Akademiyada artıq Postkonflikt Ərazilərin Bərpası Elmi Mərkəzi, alban irsini araşdırmaq üçün Albanşünaslıq Elmi Mərkəzi yaradılıb, əməkdaşlarımız yenidənqurma ilə bağlı formalaşdırılmış bir sıra ekoloji, iqtisadi və digər İşçi qruplarında təmsil olunurlar. O cümlədən, AMEA-da Zəfərimizi əks etdirən kitablar, monoqrafiyalar hazırlanır, muzeylərimizdə isə həm bu münasibətlə, həm də erməni vandalizmini əks etdirən sərgilər təşkil olunur.

Dəyərli Akademiya əməkdaşları, Sizi unudulmaz əlamətdar gün münasibətilə təbrik edir, qalib bir ölkənin vətəndaşı kimi cansağlığı və elmi-tədqiqat işlərinizdə uğurlar arzulayıram.

**Ramiz MEHDİYEV**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

# AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib


























**Noyabrın 5-də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

İclasda AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev, Rəyasət Heyətinin digər üzvləri, akademiklər - İsa Həbibbəyli, İbrahim Quliyev, Tofiq Nağıyev, Dilqəm Tağıyev, İradə Hüseynova, Rasim Əliquliyev, Arif Həşimov, Gövhər Baxşəliyeva, Fikrət Əliyev, Adil Qəribov, Fuad Əliyev və Rəyasət Heyətinin aparat rəhbəri, filologiya üzrə fəlsəfə doktoru, dosent Seyfəl Həsənov iştirak ediblər.

İclası giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev gündəlikdə duran məsələlər barədə məlumat verib.

Sonra iclasda elmi-təşkilati məsələlər müzakirə olunub, akademik Arif Həşimovun AMEA-nın birinci vitse-prezidenti vəzifəsinə namizədliyi irəli sürülüb. Akademik Ramiz Mehdiyev akademik Arif Həşimovun yüksək intellekti, elmi-təşkilati bacarığı ilə seçildiyini, Akademiya əməkdaşları arasında nüfuza və hörmətə malik olduğunu deyib, onun bu vəzifədə böyük təcrübəsi olduğunu vurğulayıb.

Müzakirələrdə, o cümlədən, akademiklər - İsa Həbibbəyli, Dilqəm Tağıyev, İradə Hüseynova, Rasim Əliquliyev, Fikrət Əliyev və Adil Qəribov çıxış edərək akademik Arif Həşimovun alim və insan kimi müsbət məziyyətlərindən, elmi-təşkilati fəaliyyətindən danışıb, sözügedən vəzifəyə layiq olduğunu, işinin öhdəsindən uğurla gələcəyini bildiriblər.

Müzakirələrdən sonra akademik Arif Həşimovun AMEA-nın birinci vitse-prezidenti vəzifəsinə namizədliyi yekdilliklə dəstəklənib.

Beləliklə, Akademiyanın növbəti Ümumi yığıncağına qədər akademik Arif Həşimovun həm AMEA-nın birinci vitse-prezidenti və həm də akademik-katibi vəzifələrini yerinə yetirməsi qərara alınıb.

Sonra akademik Arif Həşimov çıxış edərək göstərilən etimada görə minnətdarlığını bildirib, AMEA-nın nüfuzunun gücləndirilməsi, aparılan elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən işlərə öz əməli töhfəsini verəcəyini söyləyib.

Daha sonra iclasda Rusiya Elmlər Akademiyasının prezidenti, akademik Aleksandr Sergeyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinə hazırlıq barədə müzakirələr aparılıb.

Məsələ ilə bağlı məlumat verən akademik İbrahim Quliyev bildirib ki, Rusiya Elmlər Akademiyasının rəhbərliyinin noyabr ayının sonlarında ölkəmizə işgüzar səfəri gözlənilir. Akademik səfər çərçivəsində bir sıra görüşlərin keçiriləcəyini, o cümlədən hər iki ölkənin Elmlər Akademiyaları tərəfindən hazırlanmış "Elm, innovasiya və təhsil sahəsində əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Yol xəritəsi"nə dair yekun sənədin imzalanmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Müzakirələrdən sonra akademik Ramiz Mehdiyev Rusiya Elmlər Akademiyasının rəhbər heyətinin ölkəmizə gözlənilən səfərinin yüksək səviyyədə təşkili ilə bağlı müvafiq tapşırıqlarını verib.

# II beynəlxalq Qarabağ - Tətbiqi Elmlər Konqresi





**Noyabrın 8-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Zəfər Gününə və şəhidlərimizin əziz xatirəsinə həsr edilən II beynəlxalq Qarabağ - Tətbiqi Elmlər Konqresi hibrid rejimdə öz işinə başlayıb.**

"Zoom" platforması üzərindən dünyanın 20-dən çox ölkəsindən nümayəndələrin qatıldığı konqresin Azərbaycan tərəfindən təşkilatçıları AMEA, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Xəzər Universiteti, Naxçıvan Universitetidir. Türkiyə tərəfindən təşkilatçılar isə Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutudur.

Tədbirin açılış mərasimində əvvəlcə Azərbaycan və Türkiyə Respublikalarının Dövlət Himnləri səsləndirilib.

Sonra Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfərə həsr edilmiş videoçarx nümayiş olunub.

Açılış mərasimində çıxış edən tədbirin Təşkilat Komitəsinin sədri, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova tədbir iştirakçıları konqresin sədri AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev adından salamlayıb. O, hər kəsi Zəfər Günü münasibətilə təbrik edib, konqresin məhz belə bir gündə keçirilməsini mühüm tarixi hadisə kimi qiymətləndirib.

Daha sonra AMEA-nın birinci vitse-prezidenti vəzifəsini icra edən, AMEA-nın akademik-katibi, akademik Arif Həşimov müasir Azərbaycan tarixinin ən önəmli günlərindən birində - birinci ildönümünü qeyd etdiyimiz Zəfər Günündə keçirilən konqresin işinə uğurlar arzulayıb.

Akademik A.Həşimov 30 ilə yaxın ermənin tapdağı altında qalan doğma Qarabağ torpaqlarının 2020-ci il noyabr ayının 8-də Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, ölkə Prezidenti İlham Əliyevin əzmkarlığı, qətiyyəti, Azərbaycan Ordusunun misilsiz şücaəti hesabına öz həqiqi sahiblərinə qaytarıldığını vurğulayıb.

Alim bu tarixi gündə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş, xalqımızın qürur yeri, fəxarət qaynağı olan şəhidlərimizin əziz xatirəsini dərin hörmətlə anıb, yaralılara, qazilərimizə şəfa və uzun ömür diləyib.

O, Vətən müharibəsindəki tarixi Zəfərin ardınca dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Qarabağda genişmiqyaslı bərpa işlərinə, böyük quruculuq fəaliyyətlərinə başlanıldığını qeyd edərək, torpaqların erməni işğalından azad edilməsi sayəsində 30 ildən sonra regiona elmin də böyük qayıdışının başlandığını bildirib. Akademikin sözlərinə görə, AMEA ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi işinə öz töhfəsini verdiyi kimi, Qarabağın bərpasında da üzərinə düşən öhdəlikləri tam məsuliyyətlə yerinə yetirməyə hazırdır və bunun üçün bütün potensiala malikdir: "Ölkəmizdə elmin əlaqələndiricisi olan AMEA-da bu istiqamətdə görülən işlərə dəstək vermək üçün "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi-tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri haqqında Fəaliyyət proqramı və Tədbirlər planı haqqında" qərar qəbul edilmişdir".

Akademik A.Həşimov Azərbaycanda, o cümlədən Milli Elmlər Akademiyasında elmi fəaliyyətin səmərəliliyinin artırılmasına imkan verən islahatların aparıldığını, müxtəlif elm sahələrinin, xüsusilə tətbiqi elmlərin, innovativ tədqiqatların inkişafı istiqamətində mühüm işlərin görüldüyünü qeyd edib, Akademiyada idarəçilik sisteminin və elmin təşkili işinin təkmilləşdirilməsi, müasir dövrün çağırışlarına uyğun qurulması prosesinin fasiləsiz şəkildə davam etdirildiyini vurğulayıb.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova 44 günlük müharibə və onun məntiqi yekunu olan Zəfər Gününün müstəqil dövlətçiliyimizin, ərazi bütövlüyümüzün, milli mənliyimizin xilası olduğunu, Azərbaycan dövlətinin və xalqının əbədi qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazıldığını bildirib.

"Qələbənin ən vacib təməl daşlarından biri Azərbaycan xalqının dövlətimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə Ali Baş Komandanla yanaşı dayanması, iqtidar-xalq birliyinin sarsılmazlığı olmuşdur", - deyə bildirən AMEA-nın vitse-prezidenti böyük Zəfərin qazanılmasında Türkiyə dövlətinin Azərbaycanın haqq işinə mənəvi dəstəyinin mühüm rolu olduğunu deyib. Əlavə edib ki, 15 iyun 2021-ci il tarixində türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi iki dövlət arasındakı müttəfiqlik münasibətlərini yeni səviyyəyə qaldırmışdır.

Akademik İ.Hüseynova işğal dövründə Qarabağda ermənilər tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə, ümumbəşəri dəyərlərə zidd olaraq biomüxtəliflik, yeraltı və yerüstü sərvətlərin talan edildiyini, meşə, otlaq, torpaq və su ehtiyatlarından düşməncəsinə istifadə olunduğunu vurğulayıb. O, işğal dövründə bu ərazilərdə hər hansı tədqiqat işi aparmağın mümkün olmadığını qeyd edib. Müharibənin gedişində və qələbədən dərhal sonra Azərbaycan alimlərinin Böyük Qayıdış və Böyük Dirçəlişə öz töhfələrini verməyə hazır olduqlarını bəyan etdiklərini deyən vitse-prezident hazırda Qarabağa elmin böyük qayıdışında, bərpa proseslərində elmi kollektivlərimizin fəal iştirak etdiyini bildirib.

"Bu gün Qarabağın yeraltı və yerüstü, canlı və cansız, təbii və mədəni sərvətləri, mövcud bioloji və ekoloji durumu, gələcək inkişaf perspektivləri ciddi multidisiplinar tədqiqatların mövzusuna çevrilmişdir", - deyə vurğulayan alim bu istiqamətdə görülən işlər haqqında məlumat verib.

Akademikin sözlərinə görə, AMEA-da 20-21 may 2021-ci il tarixlərində "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi" mövzusunda keçirilmiş konqres bu sahədə çalışan alim və mütəxəssisləri vahid virtual məkanda toplamaqla müvafiq fəaliyyətlərlə bağlı yol xəritəsinin müəyyənləşdirilməsi baxımından önəmli hadisə olmuşdur. O, AMEA-nın "Həyat elmləri və biotibb" jurnalının bu günlərdə ingilis dilində çapdan çıxacaq xüsusi nömrəsinin Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatlarının tədqiqinə həsr edildiyini qeyd edib.

Vitse-prezident oktyabrın 22-də Tərtər rayonunun Şıxarx qəsəbəsində Zəfər Gününə həsr olunmuş "AMEA Genetik Ehtiyatlar İnstitutunun Qarabağ Elmi-Tədqiqat Bazasının infrastrukturunun bərpası, bölgə üçün yaradılmış buğda və arpa sortlarının toxumçuluğunun təşkili məsələləri" adlı tarla seminarı və seminardan sonra Bazanın işğaldan azad edilmiş və minalardan təmizlənmiş ərazilərində əkin işlərinin aparılmasının da regionda aqrar tədqiqatların bərpası istiqamətində atılmış mühüm addım olduğunu deyib. Qeyd edib ki, alimlərimiz tərəfindən regionun su ehtiyatlarının radioekoloji və mikrobioloji tədqiqi üzrə də xeyli iş görülmüşdür.

Sonda akademik İ.Hüseynova tətbiqi elmlər sahəsində multidisiplinar tədqiqatların inkişafına töhfələr vermək, onlardan alınmış mühüm nəticələri bölüşmək və fikir mübadiləsi aparmaq, eyni zamanda tədqiqatların keyfiyyətinin artırılması məqsədilə beynəlxalq elmi platforma yaratmağı hədəfləyən II beynəlxalq Qarabağ - Tətbiqi Elmlər Konqresində mühüm elmi nailiyyətlərin nümayişinə şahidlik ediləcəyinə əminliyini bildirib.

Daha sonra Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun prezidenti, Dr. Mustafa Latif Emek çıxış edərək bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib.

M.L.Emek 30 ilə yaxın bir müddətdə Azərbaycan torpaqlarını öz havadarlarının köməyi ilə işğal altında saxlayan Ermənistanın tarix boyu birlikdə yaşadığı xalqlara, qonşu dövlətlərə hər zaman vandalizm siyasəti yeritdiyini, dövlət və millət əxlaqına sığmayan vasitələrlə qarayaxma fəaliyyəti ilə məşğul olduğunu, digər dövlətlərin provokativ siyasətinin alətinə çevrildiklərini diqqətə çatdırıb. O, ermənilərin Azərbaycan xalqına qarşı etdiyi vəhşiliklərin heç bir zaman unudulmayacağını vurğulayıb.

"Azərbaycanın Ali Baş Komandanı, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Müzəffər Ordusunun şücaəti sayəsində qazanılmış Zəfər yalnız Azərbaycanın deyil, bütün bəşəriyyətin vandalizm üzərində tarixi qələbəsidir", - deyə bildirən institut rəhbəri Qarabağ torpaqlarının bundan sonra sülh, əmin-amanlıq içərisində və insanlığın layiq olduğu bütün dəyərlərə sahib olaraq əbədi Azərbaycan torpağı kimi qalacağına əminliyini ifadə edib.

M.L.Emek Qarabağın yenidən dirçəlməsində, ermənilərin törətdikləri vandalizm əməllərinin dünyaya çatdırılmasında alimlərin üzərinə böyük vəzifələr düşdüyünü qeyd edərək, rəhbərlik etdiyi institutun bundan sonra da Qarabağ həqiqətlərinin beynəlxalq arenada tanınması üçün bütün zəruri addımları atacaqlarını deyib.

O, bu gün Azərbaycanın yetişdirdiyi alim və mütəxəssislərin dünyanın aparıcı elm mərkəzlərində, qurumlarında və şirkətlərində çalışdıqlarını, Azərbaycan bayrağını dünyanın hər bir nöqtəsində qürurla dalğalandırdıqlarını diqqətə çatdırıb.

M.L.Emek çıxışının sonunda tarixi əhəmiyyətli gündə keçirilən konqresin işinə uğurlar arzulayıb.

Tədbir işini seksiya iclasları ilə davam etdirib.

Qeyd edək ki, 3 gün davam edən konqresdə 24 virtual iclas zalında 10-dan çox elm sahəsi üzrə 20-yə qədər ölkədən təqdim edilmiş 220-yə yaxın məruzə dinlənilib.

# Ordumuzun şücaəti sayəsində 30 illik torpaq həsrətimizə son qoyuldu

**AMEA-nın Fizika İnstitutunda 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir keçirilib.**

Tədbiri AMEA-nın birinci vitse-prezidenti vəzifəsini icra edən, AMEA-nın akademik-katibi, institutun baş direktoru, akademik Arif Həşimov açaraq 8 noyabr 2020-ci il tarixinin Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığını bildirib. O, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı siyasət və igid əsgərlərimizin göstərdiyi şücaət nəticəsində 30 illik torpaq həsrətimizə son qoyulduğunu bildirib.



Akademik çıxışında bu qələbənin Azərbaycan üçün yeni dönəmin başlanğıcı olduğunu vurğulayıb. Qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş torpaqlarda yenidənqurma işləri aparılır, yollar çəkilir, "Ağıllı şəhər", "Ağıllı kənd" layihələri həyata keçirilir.

Yığıncaqda, həmçinin fizika üzrə fəlsəfə doktoru Suma Hüseynova çıxış edərək bildirib ki, 30 ildən sonra Azərbaycan torpaqlarının işğaldan azad olunması tarixi bir hadisədir. Onun sözlərinə görə, hər bir Azərbaycan vətəndaşının borcudur ki, igidlərin qanı bahasına alınmış torpaqları qorusun, bu anı heç vaxt unutmasın və daim yaddaşlarında saxlasınlar.

"Biz dünyaya göstərdik ki, ən vətənpərvər xalqıq və bununla bağlı Müdafiə Nazirliyində bir çox sorğular keçirilib. Cənab Prezident İlham Əliyevlə qürur duyuruq ki, onun siyasəti nəticəsində torpaqlarımız geri qaytarıldı", - deyə tədbirdə çıxış edən müəssisənin Həmkarlar Komitəsinin sədri, fizika üzrə fəlsəfə doktoru Sitarə Bağırova vurğulayıb. O, Birinci və İkinci Qarabağ müharibəsində şəhid olan oğul və qızlarımızın heç vaxt unudulmayacağını bildirib.

Tədbirdə, həmçinin fizika üzrə fəlsəfə doktoru Lalə Əliyeva və doktorant Aytən Şərifova öz fikirlərini bölüşüb, vətənpərvər ruhda şeirlər səsləndiriblər.

Sonda Vətən müharibəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

## *Akademik Arif Həşimov:*
# "AMEA Qarabağın bərpası prosesində üzərinə düşən öhdəlikləri tam məsuliyyətlə yerinə yetirməyə hazırdır"

**Bu fikirləri AMEA-nın birinci vitse-prezidenti vəzifəsini icra edən, AMEA-nın akademik-katibi, akademik Arif Həşimov AMEA-da keçirilən Zəfər Gününə və şəhidlərimizin əziz xatirəsinə həsr edilmiş II beynəlxalq Qarabağ - Tətbiqi Elmlər Konqresində açılış nitqində səsləndirib.**



Akademik A.Həşimov 2020-ci il noyabr ayının 8-də Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, ölkə Prezidenti İlham Əliyevin əzmkarlığı, qətiyyəti, Azərbaycan ordusunun misilsiz şücaəti hesabına qazanılan tarixi Qələbə sayəsində 30 ilə yaxın erməni tapdağı altında qalan Qarabağın öz həqiqi sahibinə qaytarıldığını bildirib. O, bu tarixi gündə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş, xalqımızın qürur yeri, fəxarət qaynağı olan şəhidlərimizin əziz xatirəsini dərin hörmətlə anıb, yaralılara, qazilərimizə şəfa və uzun ömür diləyib.

"Qarabağ torpaqlarının işğaldan azad edilməsi və 10 noyabr 2020-ci ildə üçtərəfli Bəyannamənin imzalanması ilə bütövlükdə Cənubi Qafqaz, Orta və Yaxın Şərq regionunda davamlı sülh və əməkdaşlığın, inkişaf və tərəqqinin təmin edilməsinə, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin, o cümlədən tarixi İpək yolunun intensiv fəaliyyətinə yeni imkanlar açan prinsipial situasiya yaranmışdır", - deyə vurğulayan A.Həşimov Azərbaycanın bu vəziyyətin mərkəz nöqtəsinə, aparıcı qüvvələrindən birinə çevrildiyini diqqətə çatdırıb.

Akademik əlavə edib ki, Vətən müharibəsindəki tarixi Zəfərin ardınca dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Qarabağda genişmiqyaslı bərpa işlərinə, böyük quruculuq fəaliyyətlərinə başlanılmışdır. Alimin sözlərinə görə, Azərbaycan Prezidentinin nəzarəti altında həyata keçirilən bu işlər artıq öz bəhrəsini verməkdə, ardıcıl planlaşdırılan və gerçəkləşdirilən infrastruktur, ağıllı kənd və şəhər layihələri regionun simasını sürətlə dəyişdirməkdə, Qarabağ bölgəsi gülüstana çevirməkdədir: "Regionun iqtisadi inkişafında, bütün türk dünyasının yerüstü kommunikasiyalar vasitəsi ilə əlaqələndirilməsində mühüm rol oynayacaq Zəngəzur dəhlizinin açılması və fəaliyyəti üçün müvafiq addımlar atılmaqdadır".

O, torpaqların erməni işğalından azad edilməsi sayəsində 30 ildən sonra regiona elmin də böyük qayıdışının başlandığını bildirib. Qeyd edib ki, AMEA ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi işinə öz töhfəsini verdiyi kimi, Qarabağın bərpasında da üzərinə düşən öhdəlikləri tam məsuliyyətlə yerinə yetirməyə hazırdır və bunun üçün böyük potensiala malikdir.

A.Həşimovun sözlərinə görə, ölkəmizdə elmin əlaqələndiricisi olan AMEA-da bu istiqamətdə görülən işlərə dəstək vermək məqsədilə "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi-tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri haqqında Fəaliyyət proqramı və Tədbirlər planı haqqında" qərar qəbul edilmişdir.

Akademik A.Həşimov çıxışında Azərbaycanda, o cümlədən AMEA-da elmi fəaliyyətin səmərəliliyinin artırılmasına imkan verən islahatlar aparıldığını, müxtəlif elm sahələrinin, xüsusilə tətbiqi elmlərin, innovativ tədqiqatların inkişafı istiqamətində mühüm işlər görüldüyünü qeyd edib, akademiyada idarəçilik sisteminin və elmin təşkili işinin təkmilləşdirilməsi, müasir dövrün çağırışlarına uyğun qurulması prosesinin fasiləsiz şəkildə davam etdirildiyini vurğulayıb.

# "Elmdə Zəfər mükafatı-2021" müsabiqəsinin nəticələri açıqlanıb

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Zəfər Günü və Dünya Elm Günü ilə əlaqədar təşkil etdiyi "Elmdə Zəfər mükafatı-2021" müsabiqəsinin nəticələri açıqlanıb.**




Müsabiqədə I yerin qalibi AMEA-nın Radiasiya Problemləri İnstitutunun əməkdaşı Elçin Hüseynov, II yerin qalibləri AMEA-nın akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun əməkdaşları Əfsun Sucayev, Emin Qəribov, Parham Taslimi, Məhəmməd Karaman və Mohammad M.Zangeneh, Bakı Mühəndislik Universitetinin əməkdaşları Şəhriyar Muxtarov, Ceyhun Mikayılov, Suğra Hümbətova, Vüqar Muradov, III yerin qalibləri isə SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun əməkdaşı Şamo Tapdıqov, AMEA-nın Fizika İnstitutunun əməkdaşı Elçin Cəfərov və Joris Van der Jeugt olub.

Xatırladaq ki, müsabiqəyə 2021-ci ilin oktyabr ayında start verilib. Müsabiqəyə daxil olan elmi işlərin ekspertizası oktyabrın 12-dən noyabrın 5-dək aparılıb.

# Azərbaycanlı alimlərin adları dünyanın ən nüfuzlu elm adamları siyahısında

**Azərbaycanlı elm adamlarının adları Hollandiyanın elmi, texniki və tibbi məzmunda ixtisaslaşmış "Elsevier" nəşriyyat şirkəti tərəfindən dərc edilən "Dünyanın ən nüfuzlu alimləri"nin son siyahısına daxil edilib. Siyahı ABŞ-ın Stenford Universitetinin alimləri tərəfindən tərtib olunub.**




"Karyera boyu təsir" və "İllik təsir" kateqoriyaları üzrə hazırlanan siyahıda alimlərin ixtisaslı nəşrlərinin sayı, bu məqalələrin dərc olunduğu mətbu orqanın dünyada vacibliyi, alimlər tərəfindən alınan patentlərin miqdarı kimi bir çox amillər əsas götürülüb.

İlk dəfə olaraq öz sahəsində dünyanın ən nüfuzlu yüz alimi sırasına həmyerlimiz, Türkiyənin Süleyman Dəmirəl Universitetinin professoru Abdulla Sofiyevin adı daxil edilib. İstanbul Texniki Universitetinin professoru Çingiz Hacıyevin adı isə siyahıda ən nüfuzlu 500 alim sırasında yer alır.

Siyahının "Karyera boyu təsir" hissəsində qiymətləndirilənlər sırasına Abdulla Sofiyev və Çingiz Hacıyevlə yanaşı, Təhmasib Əliyev (Türkiyənin Orta Doğu Texniki Universiteti), Əlikram Əliyev (Yüzyıl Universiteti), Hüseyn Hüseynov (Atılım Universiteti), AMEA-nın müxbir üzvü Surxay Əkbərov (Yıldız Texniki Universiteti) olmaqla qardaş ölkədə fəaliyyət göstərən altı azərbaycanlı professorun adı daxil edilib. Ümumilikdə 186 min 177 nəfərin adının yer aldığı bölüm dünya alimlərinin karyeralarının təhlili və son beş il ərzində onlar tərəfindən nəşr olunan əsərlərin dünyada təsirini özündə əks etdirir.

Siyahının "İllik təsir" kateqoriyasında da Abdulla Sofiyev, Təhmasib Əliyev, Çingiz Hacıyev, həmçinin qardaş ölkənin Bilkent Universitetinin dosenti Seymur Cahangirov, Orta Doğu Texniki Universitetinin professoru Nizami Həsənli və İstanbul Texniki Universitetinin professoru Elimhan Mahmudov olmaqla altı həmvətənimizin adı yer alır. Bu bölümdə dünya üzrə ümumilikdə 190 min 63 elm adamının öz sahəsi üzrə fəaliyyəti qiymətləndirilib.

Qeyd edək ki, siyahılardakı adlar alimlərin fəaliyyətlərinə görə əldə edilən göstəricilərə əsasən sıralanıb.

## *Akademik İradə Hüseynova:*
# "AMEA Qarabağa elmin böyük qayıdışında, bərpa proseslərində fəal iştirak edir"

**AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova Zəfər Gününə və şəhidlərimizin əziz xatirəsinə həsr edilən II beynəlxalq Qarabağ - Tətbiqi Elmlər Konqresinin açılış mərasimində çıxış edib.**



Akademik İ.Hüseynova Azərbaycan dövlətinin və xalqının əbədi qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılmış 44 günlük müharibə və onun məntiqi yekunu olan Zəfər Gününün müstəqil dövlətçiliyimizin, ərazi bütövlüyümüzün, milli mənliyimizin xilası olduğunu bildirib, qazanılmış qələbənin tarixi əhəmiyyətindən bəhs edib.

AMEA-nın vitse-prezidenti qeyd edib ki, ulu öndər Heydər Əliyevin siyasi, iqtisadi və hərbi siyasətini uğurla davam və inkişaf etdirən Azərbaycan dövlətinin başçısı, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, millətin vahid amal uğrunda dəmir yumruq kimi birləşməsi dənizdən-dənizə Ermənistan ideyasını yerlə yeksan etdi, Ermənistan adlı vassal qurumun müstəqil dövlət şəkildə mövcudluğunu belə sual altına saldı.

Akademikin sözlərinə görə, qələbənin ən vacib təməl daşlarından biri Azərbaycan xalqının dövlətimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə Ali Baş Komandanla yanaşı dayanması, lider-xalq birliyinin sarsılmazlığı olmuşdur. Müstəqillik illərində vətənpərvərlik ruhunda tərbiyə alaraq böyümüş Azərbaycan gəncləri, qanları ilə bayrağımıza al rəng vermiş şəhid və qazilərimiz, arxa cəbhədə çalışan fədakar insanlarımız ölkə Prezidenti İlham Əliyevin bir çağırışı ilə ayağa qalxmış, əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Vitse-prezident əlavə edib ki, böyük qələbənin qazanılmasının daha bir mühüm amili Türkiyə - Azərbaycan qardaşlığı, Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə mənəvi dəstəyi olmuşdur. Müharibənin ilk günündən Türkiyə Respublikası Prezidentinin bütün dünyaya mesajları, açıq, birmənalı və sərt açıqlamaları Azərbaycana əlavə güc vermiş, birliyimizin, qardaşlığımızın əbədiliyinin daha bir təzahürü olmuşdur: "15 iyun 2021-ci il tarixində türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasındakı müttəfiqlik münasibətlərini yeni səviyyəyə qaldırmışdır".

Akademik vurğulayıb ki, 30 ilə yaxın bir müddətdə işğal altında qalmış Qarabağda ermənilər tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə, ümumbəşəri dəyərlərə zidd olaraq biomüxtəliflik, yeraltı və yerüstü sərvətlər talan edilmiş, meşə, otlaq, torpaq və su ehtiyatlarına düşməncəsinə istifadə olunmuşdur. Qiymətli ağacların üstünlük təşkil etdiyi meşələr, o cümlədən Avropada yeganə olan unikal çinar meşəsi, yüz və min illərə şahidlik etmiş çox qədim çinar ağacları ermənilər tərəfindən kəsilərək məhv edilmişdir. Azərbaycanın "Qırmızı kitab"ına düşmüş onlarla bitki və heyvan növləri tamamilə itmək təhlükəsinə məruz qalmışdır.

İşğal dövründə bu ərazilərdə hər hansı tədqiqat işi aparmağın mümkün olmadığını qeyd edən İ.Hüseynova müharibənin gedişində və qələbədən dərhal sonra Azərbaycan alimlərinin Böyük Qayıdış və Böyük Dirçəlişə öz töhfələrini verməyə hazır olduqlarını bəyan etdiklərini bildirib, hazırda Qarabağa elmin böyük qayıdışında, bərpa proseslərində elmi kollektivlərimizin fəal iştirak etdiklərini deyib.

"Bu gün Qarabağın yeraltı və yerüstü, canlı və cansız, təbii və mədəni sərvətləri, mövcud bioloji və ekoloji durumu, gələcək inkişaf perspektivləri ciddi multidissiplinar tədqiqatların mövzusuna çevrilmişdir", - deyə vurğulayan alim bu istiqamətdə görülən işlər haqqında məlumat verib. Bildirib ki, AMEA-da "Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılacaq elmi-tədqiqat işləri, elmtutumlu bərpa və quruculuq layihələri üzrə AMEA-nın Fəaliyyət Proqramı" və "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi-tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri haqqında Tədbirlər Planı" yerinə yetirilməkdədir.

Vitse-prezident akademiyanın müvafiq institutları və alimlərinin Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji, Energetika, Şəhərsalma məsələləri üzrə İşçi Qruplarının işində, müvafiq fəaliyyət proqramının icrasında, region üzrə bioloji və redioekoloji monitorinqlərin aparılmasında, Ermənistanın Qarabağda törətdiyi ekoloji terrorun miqyasının qiymətləndirilməsində fəal şəkildə iştirak etdiklərini nəzərə çatdırıb.

Akademikin sözlərinə görə, AMEA-da 20-21 may 2021-ci il tarixlərində "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi" mövzusunda keçirilmiş konqres bu sahədə çalışan alim və mütəxəssisləri vahid virtual məkanda toplamaqla müvafiq fəaliyyətlərlə bağlı yol xəritəsinin müəyyənləşdirilməsi baxımından önəmli hadisə olmuşdur. Məruzəçi AMEA-nın "Həyat elmləri və biotibb" jurnalının bu günlərdə ingilis dilində çapdan çıxacaq xüsusi nömrəsinin Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatlarının tədqiqinə həsr edildiyini qeyd edib.

Alim oktyabrın 22-də Tərtər rayonunun Şıxarx qəsəbəsində Zəfər Gününə həsr olunmuş "AMEA Genetik Ehtiyatlar İnstitutunun Qarabağ Elmi-Tədqiqat Bazasının infrastrukturunun bərpası, bölgə üçün yaradılmış buğda və arpa sortlarının toxumçuluğunun təşkili məsələləri" adlı tarla seminarı və seminardan sonra Bazanın işğaldan azad edilmiş və minalardan təmizlənmiş ərazilərində əkin işlərinin aparılmasının da regionda aqrar tədqiqatların bərpası istiqamətində atılmış ciddi addım olduğunu deyib. Əlavə edib ki, alimlərimiz tərəfindən regionun su ehtiyatlarının radioekoloji və mikrobioloji tədqiqi üzrə də xeyli iş görülmüşdür: "Əminəm ki, planlaşdırılan bütün işlər tam şəkildə həyata keçiriləcək, Azərbaycan və onun ayrılmaz hissəsi olan Qarabağ durmadan inkişaf edəcək, yeni dövr tariximizin hər günü Zəfər Günü olacaq".

Sonda akademik İ.Hüseynova tətbiqi elmlər sahəsində multidissiplinar tədqiqatların inkişafına töhfələr vermək, onlardan alınmış mühüm nəticələri bölüşmək və fikir mübadiləsi aparmaq, eyni zamanda tədqiqatların keyfiyyətinin artırılması məqsədi ilə beynəlxalq elmi platforma yaratmağı hədəfləyən 2-ci beynəlxalq Qarabağ - Tətbiqi Elmlər Konqresində mühüm elmi nailiyyətlərin nümayişinə şahidlik ediləcəyinə inamını ifadə edib, bu möhtəşəm tədbir münasibətilə hamını təbrik edib və konfransın işinə uğurlar arzulayıb.

# Azıx mağarasına həsr edilmiş kollektiv monoqrafiyanın təqdimatı



**AMEA-nın Ədəbiyyat İnstitutunun elektron zalında Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Daş dövrü arxeologiyası şöbəsinin müdiri tarix elmləri doktoru, professor Əsədulla Cəfərovun rəhbərliyi altında hazırlanmış "Azıx mağarası: Azərbaycan ərazisində ən qədim ibtidai insan düşərgəsi" adlı kollektiv monoqrafiyanın təqdimat mərasimi keçirilib.**

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, İctimai Elmlər Bölməsinin Elmi şurasının sədri akademik İsa Həbibbəyli Azıx mağarasının tədqiqinə həsr edilmiş monoqrafiyanı yüksək qiymətləndirib. "Bu kitab düşərgəni kəşf etmiş arxeoloq Məmmədəli Hüseynovun Azıx mağarasında aparmış ilk tədqiqatlarından başlayaraq professor Əsədulla Cəfərovun rəhbəri olduğu son tədqiqatlarının nəticələrini əks etdirən məqalələrin ən qiymətli toplusudur. Bu, Azərbaycan arxeologiya elminin, tarix elminin mükəmməl bir "Azıxnamə"sidir. Torpaqlarımız azad edildikdən, Azıx mağarasının qaytarılmasından sonra bu mövzunun Azərbaycan alimləri tərəfindən elmi dövriyyəyə yenidən qaytarılması böyük elmi və ictimai əhəmiyyəti kəsb edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad edilmiş torpaqlarımıza səfərləri zamanı Azıx mağarası abidəsini ayrıca ziyarəti Azərbaycan alimləri qarşısında yeni və möhtəşəm vəzifələr qoydu. Professor Əsədulla Cəfərovun ərsəyə gətirdiyi bu kollektiv monoqrafiya Prezidentimizin qarşımızda qoymuş olduğu istiqamətdə atılmış ilk əhəmiyyətli addımlardan biridir. Bugünkü təqdimat mərasimi Azıx mağarası ətrafında tədqiqatlara dövlət başçısının çağırışlarına rəğmən yenidən qayıdışın uğurlu başlanğıcıdır", - deyə akademik İ.Həbibbəyli vurğulayıb.

Akademik bildirib ki, gələn il Azıx mağarasına, işğaldan azad olunduqdan sonrakı müddətdə ilk arxeoloji ekspedisiya təşkil ediləcək. O, monoqrafiyanın böyük dəyərini bir daha qeyd edərək onu ərsəyə gətirmiş Əsədulla Cəfərova təşəkkürünü bildirib.

Tədbir iştirakçılarına minnətdarlığını bildirən professor Əsədulla Cəfərov deyib ki, Azıx bu gün dünyada yeganə paleolit düşərgəsidir. Azıxdan tapılmış daş alətlərin sayı 9757 ədəddir. Həmin materiallar arasında Quruçay mədəniyyətinə aid nümunələr aşkar edilib. Quruçay mədəniyyətinin tarixi 2 500 000 il əvvəldən başlamış 800 000 əvvələ qədər davam edib. Quruçay və Köndələnçay sahilləri boyunca məskən salmış qədim insanlar Şərqi Afrikadan tədrici axınla miqrasiya ediblər. Tapılmış maddi mədəniyyət nümunələri əsasında biz qədim insanların şüurunun inkişafı mərhələlərini, bitki və heyvan qalıqları vasitəsilə bölgənin qədim flora və faunasını öyrənirik. 2001-ci ildən başlayaraq İtaliya, Fransa, Niderland və digər ölkələrin alimləri İNTAS beynəlxalq tədqiqat layihəsini yaradıb və onlar Azərbaycana səfər edərək Azıxdan tapılmış arxeoloji, paleontoloji və morfoloji materiallarla tanış olublar.

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz ötən il noyabrın 8-də Şuşa şəhərini, noyabrın 9-da Azıx paleolit yaşayış məskənini azad etdi. 33 il sonra Azıx mağarasını ziyarət etdim. Kədər və eyni zamanda, qürur hissləri qəlbimi doldururdu. Nəinki Azıx, bütün Qarabağımız bəşəriyyətə məxsus bir abidədir. Bundan sonra da həyatımın qalan hissəsini yenə də elmə sərf edəcəyəm. 2017-ci ildə nəşr edilmiş "Qarabağın paleolit düşərgəsi" adlı əsərim bir çox ölkələrin, o cümlədən Harvard Universiteti kitabxanasının fonduna daxil edilib. İndi mən "Qarabağda nələr gördüm?" adlı bir əsər üzərində işləyirəm", - deyə professor Əsədulla Cəfərov çıxışını yekunlaşdırıb.

Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor İradə Hüseynova tələbəlik dövründə Azıx mağarasında Məmmədəli Hüseynovun rəhbərliyi altında ekspedisiyada iştirakı barədə xatirələrini bölüşüb.

Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva, İqtisadiyyat İnstitutu Postkonflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Akif Musayev, Coğrafiya İnstitutunun baş direktoru coğrafiya elmləri doktoru, dosent Zakir Eminov, Tarix İnstitutunun icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhrəmov, tarix elmləri doktoru, professor Şahin Fərzəliyev monoqrafiyanın elmi əhəmiyyətindən söz açıb və böyük zəhmətinə görə professor Əsədulla Cəfərova təşəkkür ediblər.

# İnstitutda Zəfər Günü qeyd olunub

**AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda Zəfər Gününə həsr olunan tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, institutun baş direktoru, akademik Dilqəm Tağıyev bildirib ki, 8 noyabr 2020-ci il Azərbaycan tarixinin şanlı səhifəsinə qələbə günü kimi yazılıb: "Həmin gün müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində Azərbaycanın tarixi şəhəri və mədəniyyət mərkəzi hesab edilən, həm hərbi-strateji baxımdan, həm də mənəvi cəhətdən əhəmiyyətli olan Şuşanın şanlı ordumuz tərəfindən azad edildiyini bildirdi. Şuşa 28 ildən sonra mənfur düşmən işğalından qurtuldu. Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın tacı olan qədim Şuşamızın gözü 28 il idi yollarda qalmışdı. O, həsrətlə doğmalarına qovuşacağı, yağı düşmənin caynağından qurtulacağı anı gözləyirdi və bu, baş tutdu. Ordumuz Şuşanı azad etməklə təkcə hərbi baxımdan deyil, mənəvi-psixoloji baxımdan da düşmənə ağır zərbə vurdu. Şuşanın azad edilməsi erməni xalqının və ordusunun böyük ruh düşkünlüyünə və xaosuna səbəb oldu. Çünki alınmaz qala hesab olunan Şuşanın ordumuz tərəfindən qısa müddət ərzində düşmən tapdağından azad edilməsi düşmən ordusunun özgüvənini də məhv etdi".

Akademik vurğulayıb ki, iki gün sonra, 10 noyabr tarixində Ali Baş Komandan Vətən müharibəsində qələbə qazandığımızı, düşmənin məğlubiyyətə uğradığını bəyan etdi. "Milli yaddaşımızda qızıl hərflərlə həkk olunacaq 10 noyabr xalqımızın qəhrəmanlıq salnaməsi və şanlı qalibiyyəti kimi tarixə düşdü. Bu möhtəşəm qələbə 30 illik Qarabağ həsrətinə son qoydu və düşmən işğalında olan tarixi torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunmasını təmin etdi. Milli həmrəylik, xalq-ordu-Prezident birliyi, xalqın etimadı, dəmir yumruq kimi birləşməsi, inamı və dəstəyi sayəsində dövlətimizin başçısı həmin dövrdə bütün məsələlərin öhdəsindən uğurla gəldi. Azərbaycan əsgərinin döyüş meydanında qazandığı zəfər diplomatiya meydanında bizə üstünlük verdi və sonda danışıqların şərtlərini Azərbaycan tərəfi diktə etdi. 44 günlük Vətən müharibəsi dövründə dünyanın 10-dan artıq nüfuzlu televiziya kanalına və informasiya agentliklərinə müsahibə verən Ali Baş Komandan İlham Əliyev Azərbaycana qarşı irəli sürülən bütün yalan və qərəzli informasiyaları ifşa etdi. Dövlət başçımız məşhur xarici jurnalistlərin suallarını tutarlı tarixi faktlarla cavablandıraraq bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır! Xalqımız canlarını qurban verən şəhidlərimizin qəhrəmanlığını heç vaxt unutmayacaq və onların adı Azərbaycanda həmişə ən yüksək səviyyədə yad ediləcək", - deyə akademik qeyd edib.

Sonra professorlar İxtiyar Bəxtiyarlı və Asif Məmmədov Ağdam şəhərinə səfərlərindən, professor Arif Əfəndi, dosentlər Elza Salahova və Vaqif Qasımov 44 günlük Vətən müharibəsindən, Ali Baş Komandanın cəsarətindən və ordumuzun rəşadətindən, eləcə də ölkə başçısının rəhbərliyi altında Qarabağda aparılan bərpa və quruculuq işlərindən danışıblar.

# "Cavidşünaslıq" çoxcildliyinin təqdimatı keçirilib



**Hüseyn Cavidin Naxçıvan şəhərindəki ev muzeyində "Cavidşünaslıq" çoxcildliyinin təqdimatı olub.**

Təqdimat mərasimində Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli, çoxcildliyin tərtibçi-müəllifi AMEA-nın Hüseyn Cavidin Ev Muzeyinin baş direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Mədəniyyət nazirinin müavini Həsən Kərimov, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar və digər mötəbər qonaqlar iştirak edib.




Çıxışçılar bildiriblər ki, "Cavidşünaslıq" toplusunun təqdimat mərasiminin ilk dəfə Naxçıvan Muxtar Respublikasında keçirilməsi təsadüfi deyil. Əgər bu bir tərəfdən dahi şair və dramaturq Hüseyn Cavidin Naxçıvanda doğulub, boya-başa çatması ilə bağlıdırsa, digər tərəfdən Muxtar Respublikada elmə, təhsilə, mədəniyyətə göstərilən böyük dövlət qayğısı ilə əlaqədardır. İştirakçılar 30 cildlik "Cavidşünaslıq" toplusunun ərsəyə gəlməsində filologiya elmləri doktoru Gülbəniz Babaxanlının və onun rəhbərlik etdiyi Hüseyn Cavidin Ev Muzeyinin kollektivinin böyük əməyi olduğunu vurğulayıblar. Bildirilib ki, cavidsevərlər üçün böyük hədiyyə olan bu çoxcildlikdə 1912-ci ildən 2017-ci ilədək Hüseyn Cavid irsinin tədqiqi ilə bağlı mətbuatda dərc olunmuş məqalələr əhatə olunub.

Diqqətə çatdırılıb ki, çoxcildlikdə Hüseyn Cavidin həyat və yaradıcılığı bir çox istiqamətlərdən: ədəbiyyatşünaslıq, teatrşünaslıq, mətnşünaslıq, tarixşünaslıq, mənbəşünaslıq, fəlsəfə və digər cəhətdən aparılan bütün tədqiqatlar öz əksini tapıb. Sadalanan bu sahələrə aid tədqiqat materiallarının bu topluda əks olması onu təkcə ədəbiyyatşünaslar üçün deyil, digər elm sahələrində çalışanlar üçün də qiymətli mənbəyə çevirib. Təqdim olunan çoxcildliyi müasir dövrün cavidşünasları üçün zəngin bir xəzinə kimi qiymətləndirən mütəxəssislər toplunun müstəqillik idealları işığında Hüseyn Cavidi yenidən öyrənməyə geniş imkanlar açdığını da vurğulayıblar.

Mərasimin sonunda Hüseyn Cavidin Ev Muzeyinin baş direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı "Cavidşünaslıq" toplusunun işçi qrupu adından təqdimat üçün yaradılan şəraitə görə öz minnətdarlığını bildirib, rəhbərlik etdiyi muzeyin yeni layihələri haqqında ətraflı məlumat verib.

# Ədəbiyyat İnstitutunun Qarabağnaməsi

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Zəfər Gününə həsr olunmuş "Ədəbiyyat İnstitutunun Qarabağnaməsi" mövzusunda tədbir keçirilib.**



Tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli tarixi qələbəmizin əhəmiyyətindən söz açıb. Bildirib ki, "Dünyada və ölkədə, o cümlədən akademiyada Zəfər gününə aid tədbirlər davam edir. Bu həm bizim qanuni haqqımızdır, həm də müharibə reallıqlarını dünyaya çatdırmaq lazımdır. Elmimizin bu istiqamətini təşfiq etməliyik. Akademiyada çalışan alimlərin 38 rəsm əsəri bu mövzudadır. Bölmənin isə Zəfər mövzusunda 39 kitabı çap olunub. İndiyədək Ədəbiyyat İnstitutunun əməkdaşlarından Elçin Mehrəliyevin 4, Mərziyyə Nəcəfovanın 5, Fəridə Hicranın 3 kitabı nəşr olunub və Əlizadə Əsgərli, Bahar Bərdəlinin də kitabları vardır".

Sonra filologiya elmləri doktoru Əlizadə Əsgərli "Ədəbiyyatımızda Qarabağ mövzusu: İnstitut əməkdaşlarının elmi tədqiqatlarına baxış" adlı məruzə ilə çıxış edib. O vurğulayıb ki, "bu gün tarixi günlər sırasındadır. Həmin tarixi günlər şərəfini Ədəbiyyat İnstitutu da bu gün yaşamaqdadır. Tarixi Zəfər günü münasibətilə dövlətimizi və millətimizi, dövlətimizin başçısı cənab İlham Əliyevi və milli ordumuzu institutumuzun kollektivi adından təbrik edir, daha böyük zəfərlər arzulayırıq. Bu tarixi zəfər günündə Ədəbiyyat İnstitutu olaraq əməkdaşların bu və ya digər şəkildə xidmətləri vardır. Bu xidmət ondan ibarətdir ki, biz Azərbaycan dövlətinin idealogiyasını təbliğ edir, elmimizi inkişaf etdiririk. Qarabağ mövzusunda tədqiqatlar aparmış əməkdaşlarımızdan Elçin Mehrəliyevin və Mərziyyə Nəcəfovanın doktorluq dissertasiyalarını xüsusi qeyd etməliyik. Bunlardan başqa Qəzənfər Paşayev, Rahid Ulusel, Tehran Əlişanoğlu, Elçin Mehrəliyev, Mərziyyə Nəcəfova, Fəridə Hicran, Bahar Bərdəli və başqa əməkdaşlarımızın Qarabağ mövzusunda əsərləri vardır".

Tədbirdə institutun alimləri Qəzənfər Paşayev, Məhərrəm Qasımlı, Leyli Əliyeva, Fəridə Hicran, Bahar Bərdəli, İbrahim Yusifoğlu, Zəkulla Bayramlı bədii nümunələrlə çıxış ediblər.

# Biologiya və Tibb Elmləri Bölməsinin Elmi şurasının Ümumi yığıncağı




**AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) Elmi şurasının Ümumi yığıncağı keçirilib.**

Yığıncağı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib. Elmi şuranın sədri iştirakçılara 8-10 noyabr 2021-ci il tarixlərində AMEA-nın təşkilatçılığı ilə Zəfər Günü və şəhidlərin xatirəsinə həsr olunmuş II beynəlxalq Qarabağ - Tətbiqi Elmlər Konqresinin keçiriləcəyini xatırladıb. O, bu mühüm beynəlxalq tədbirdə 20-dən çox ölkədən daxil olmuş 216 məruzənin dinləniləcəyini bildirib.

Sonra gündəlikdə duran məsələlərin müzakirəsinə başlanılıb.

Birinci məsələ AMEA-nın Botanika İnstitutunun baş direktoru vəzifəsinə seçkilərin keçirilməsi olub. Akademik İradə Hüseynova qeyd edib ki, AMEA prezidentinin təqdimatına və AMEA Rəyasət Heyətinin 8 yanvar 2021-ci il tarixli qərarına müvafiq olaraq, adıçəkilən vəzifəyə biologiya elmləri doktoru, professor Səyyarə İbadullayevanın namizədliyi irəli sürülüb.

Akademik İradə Hüseynova namizədin həyat yolu, elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı yığıncaq iştirakçılarını məlumatlandırıb. O bildirib ki, AMEA Botanika İnstitutunun direktoru vəzifəsini icra edən biologiya elmləri doktoru, professor Səyyarə İbadullayeva 1995-ci ildə "Botanika" ixtisası üzrə namizədlik, 2005-ci ildə doktorluq dissertasiyalarını müdafiə edib, 2012-ci ildə professor elmi adına layiq görülüb. 1995-ci ildən 2020-ci ilə qədər AMEA-nın Botanika İnstitutunda elmi işçidən Etnobotanika şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlib. S.İbadullayeva Azərbaycan flora və bitkiliyində formasiya və assosiasiyaların tərkibini öyrənib, genezisi və formalaşması yollarını araşdırıb, itmək təhlükəsində olan bitkilərin mühafizəsi və bərpası istiqamətində populyasiyaları senoloji və beynəlxalq qırmızı siyahıya uyğun qiymətləndirib. Onun tərəfindən Azərbaycan florasında bir sıra fəsilələrin taksonomik tərkibi və bioekoloji xüsusiyyətləri müəyyənləşdirilib, mühüm xalq təsərrüfat əhəmiyyətli növlərin regionlar üzrə ehtiyatı öyrənilib və ilk dəfə olaraq itməkdə olan 70-dən çox növün mühafizəsi üzrə tədbirlər kompleksi işlənib hazırlanıb. Professor Səyyarə İbadullayeva 250-ə qədər elmi əsərin (100-ə qədəri xaricdə), o cümlədən 2 müəlliflik şəhadətnaməsinin, 12 kitabın müəllifidir. Alimin elmi məsləhətçiliyi və rəhbərliyi ilə 3 elmlər, 10 fəlsəfə doktoru hazırlanıb.

Sonra aparılan müzakirələrdə akademiklər Qərib Məmmədov, Tariyel Talıbov, AMEA-nın müxbir üzvləri Elşad Qurbanov, Zeynal Əkpərov, Saleh Məhərrəmov, Novruz Quliyev, Əlövsət Quliyev və başqaları çıxış edərək professor Səyyarə İbadullayevanın elmi və elmi-təşkilati fəaliyyətini yüksək qiymətləndiriblər.

Daha sonra professor Səyyarə İbadullayeva açıq səsvermə yolu ilə Botanika İnstitutunun baş direktoru vəzifəsinə seçilib və təsdiq edilməsi üçün AMEA Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması barədə qərar qəbul olunub.

Sonra AMEA Biologiya və Tibb Elmləri Bölməsinin fəaliyyəti ilə bağlı bir sıra digər məsələlərə baxılaraq müvafiq qərarlar verilib.

# Zəfər Günündə ağacəkmə aksiyası



**AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan institutun baş direktoru, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova rəşadətli Azərbaycan Ordusunun qüdrətindən, şəhid və qazilərimizin döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan söz açaraq, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun torpaqlarımızı işğalçı düşməndən azad etdiyini qeyd edib: "Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib. Bu gün öz haqqı uğrunda əvvəldən axıra kimi ləyaqətlə, inamla mübarizə aparan, bu müharibədən qalib çıxan qüdrətli Azərbaycan xalqı böyük zəfərini qeyd edir. Bu günlər ərzində biz şəhidlərimizi və onların doğmalarını heç vaxt unutmadıq və unutmarıq! Bu qələbəyə görə biz hamımız onlara borcluyuq. Canlarını vətən uğrunda fəda verib bizə doğma torpaqlarımızı qaytardıqlarına və bu sevinci bizə bəxş etdiklərinə görə onların ruhu qarşısında baş əyirik, doğmalarına səbr diləyirik. Allahdan bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzu edirik".

Sonra AMEA-nın müxbir üzvləri - əslən Qubadlıdan olan İlham Şahmuradov, əslən Cəbrayıldan olan Novruz Quliyev, Veteranlar şurasının sədri İbrahim Əzizov, qazi atası Mikayıl Paşayev, Birinci Qarabağ müharibəsinin iştirakçısı Şahvələd Məmmədov, YAP "Sünbül" Ərazi ilk Partiya Təşkilatının Gənclərlə iş üzrə sədr müavini Natiq Məmmədov, Gənc Alim və Mütəxəssislər Şurasının sədri Nərgiz Bayramova bu böyük qələbə sevincini bizə yaşatdıqlarına, uzun illərin torpaq həsrətinə son qoyduqların görə Ali Baş Komandan İlham Əliyevə və müzəffər Azərbaycan Ordusuna minnətdar olduqlarını, Azərbaycan xalqının cənab Prezidentin ətrafında bir yumruq kimi birləşib bu sınaqdan şərəflə, qalib xalq kimi çıxdığını qeyd ediblər.

Tədbirdə 44 günlük Vətən müharibəsində qəhrəman oğullarımızın keçdiyi döyüş yolunu əks etdirən videoçarx nümayiş olunub. Daha sonra tədbir ağacəkmə aksiyası ilə davam etdirilib.

# Dissertasiya mövzuları müzakirə olunub

**Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Biologiya, aqrar və tibb elmləri üzrə problem şurasının onlayn formatda 11-ci iclası şuranın Tibb və Biologiya seksiyaları ilə birlikdə keçirilib.**




İclası açan AMEA-nın vitse-prezidenti, Problem şurasının sədri, akademik İradə Hüseynova gündəlikdə duran məsələlər barədə şura iştirakçılarını məlumatlandırıb.

Sonra Problem şurasının elmi katibi, biologiya elmləri doktoru, dosent Dilzarə Ağayeva dissertasiya mövzularının təsdiqi üçün 23 işin (tibb üzrə 6, botanika üzrə 3, zoologiya üzrə 7, fiziki-kimyəvi biologiya üzrə 7) müzakirəyə çıxarıldığını bildirib.

Dissertasiya mövzularının akademik İradə Hüseynovanın rəhbərliyi ilə keçirilən müzakirələrində həm problem şurasının, həm də seksiyaların üzvləri fəal iştirak ediblər.

İclasın gedişində qarşıya çıxan suallara aydınlıq gətirmək üçün iddiaçılar və müvafiq dissertasiya işlərinin elmi məsləhətçiləri və rəhbərləri onlayn formatda iclasa qoşulublar.

Tibb üzrə müzakirəyə çıxarılmış 1 mövzu istisna olmaqla, digər 22 mövzu müsbət qiymətləndirilərək (əksər mövzuların adında dəyişikliklər edilməklə) qəbul olunub.

# İnstitutda Dünya Elm Günü qeyd olunub

**AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun növbəti onlayn elmi seminarında 10 noyabr - Dünya Elm Günü ilə bağlı müzakirələr aparılıb. AMEA-nın vitse-prezidenti, institutun baş direktoru, akademik Rasim Əliquliyev tədbirdə giriş nitqi ilə çıxış edərək öncə İkinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzün bərpası uğrunda qazanılan tarixi qələbənin ildönümü, 8 Noyabr - Zəfər Günü, eyni zamanda 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə rəhbərlik etdiyi kollektivi təbrik edib.**



Akademik elmi seminarda Industry 4.0 platformasında elmdə gedən transformasiyalar, imkanlar, qarşıya çıxan problemlər və perspektivlərlə bağlı məruzənin dinləniləcəyini söyləyib. Bildirib ki, dünyanın əksər ölkələrində qeyd olunan bu günün əsas məqsədi cəmiyyətdə elmin rolunu yüksəltmək, elmin missiyasını bəşəriyyət qarşısında duran qlobal problemlərin həllinə yönəltmək, eləcə də, bu məsələlərə dünya ölkələrinin diqqətini cəlb etməkdir.

R.Əliquliyev bir neçə il öncə İordaniyada keçirilən Dünya Elm Gününə həsr olunmuş mötəbər tədbirdə dünyanın hər yerindən elm sahəsində fəaliyyət göstərən şəxslər, tanınmış alimlər, nüfuzlu şirkətlər, o cümlədən elmi müəsisə və təhsil qurumları rəhbərlərinin iştirak etdiyini, həmin iclasda AMEA-nın da yüksək səviyyədə təmsil olunduğunu xatırladıb.

AMEA-nın vitse-prezidenti bu gün dünyada ən aktual mövzulardan biri olan qlobal iqlim dəyişiklikləri barədə fikirlərini bölüşüb. Son illərdə Arktikada buzların əriməyə başlaması, meşə yanğınlarının vüsət alması, dünya okeanında suyun səviyyəsinin qalxması və bir sıra ölkələrin su altında qalmasını bəşəriyyət üçün qlobal problem və ciddi təhlükələr kimi qiymətləndirib. Bu kimi problemlərin meydana gəlməsində müəyyən mənada elm və texnologiyanın sürətli inkişafının rolu olduğunu deyib.

Akademik R.Əliquliyev söyləyib ki, hazırda dünyanı ən çox narahat edən və düşündürən məsələ elmin cəmiyyət və təbiət, cəmiyyət və qlobal iqlim, eləcə də ekologiyaya dair prioritetlərinin müəyyənləşdirilməsi və bəşəriyyətin xilası üçün bütün səylərin birləşdirilməsidir.

"Seminarın əsas tədqiqat obyekti və hədəfi IV sənaye inqilabının çağırışları əsasında elmdə gedən rəqəmsal transformasiyalar haqqında fikir mübadiləsi aparmaqdır", - deyən akademik bu tədbirdə, həmçinin dünya elmini narahat edən məsələlərlə bağlı ölkəmizdə həyata keçirilən tədbirlərin, atılan addımların müzakirə olunacağını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən institutun şöbə müdiri Təhmasib Fətəliyev müzakirəyə çıxarılan mövzunun İnformasiya Texnologiyaları İnstitutu ilə bağlılığının bu qurumda elektron elm problemi ilə bağlı araşdırmaların aparılması ilə başladığını qeyd edib.

Sonra elmi seminarda şöbə müdirləri Təhmasib Fətəliyev və Şakir Mehdiyevin "Industry 4.0 platformasında e-elmin transformasiyası: İmkanlar, problemlər və perspektivlər" mövzusunda hazırladıqları məruzə dinlənilib.

Mövzu üzrə aparılmış elmi araşdırmaların nəticələrini Ş.Mehdiyev təqdim edib. O, bildirib ki, elm və sənaye inqilabları qarşılıqlı əlaqəlidir və vəhdət təşkil edirlər. Belə ki, onların inkişafı və formalaşması paralel olaraq baş verir. Qabaqcıl elmi-texnoloji nailiyyətlər sənaye inqilablarının əsasını təşkil edir, sənaye inqilabları isə öz növbəsində, yeni elmi istiqamətlərin formalaşmasına və elmin cəmiyyətin ehtiyaclarına uyğunlaşmasına kömək edir.

Məruzə seminar iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb, çıxış ətrafında geniş fikir mübadiləsi aparılıb.

Müzakirələrdə iştirak edən institutun icraçı direktoru, texnika üzrə fəlsəfə doktoru, dosent Rəşid Ələkbərov, şöbə müdiri, AMEA-nın müxbir üzvü Məsumə Məmmədova, şöbə müdiri, AMEA-nın müxbir üzvü Ramiz Alıquliyev, şöbə müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Bikəs Ağayev və digər alim və mütəxəssislər institutda Dünya Elm Gününün qeyd edilməsinin əhəmiyyətini vurğulayıb, seminarda dünya elmini narahat edən qlobal problemlərin həlli istiqamətində aparılan müzakirələri yüksək qiymətləndiriblər.

# Fizika-riyaziyyat və texnika elmləri üzrə problem şurasının iclası keçirilib

**Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının (ETƏŞ) Fizika-riyaziyyat və texnika elmləri üzrə problem şurasının növbəti iclası keçirilib. Onlayn tədbirdə Problem şurasının üzvləri, elmlər doktoru və fəlsəfə doktoru hazırlığı üzrə dissertasiya mövzularının təsdiqi üçün müraciət edən iddiaçılar, eləcə də həmin dissertasiya işləri üzrə elmi məsləhətçilər və rəhbərlər iştirak ediblər.**

AMEA-nın vitse-prezidenti, Problem şurasının sədri, akademik Rasim Əliquliyev çıxış edərək gündəlikdə duran məsələləri diqqətə çatdırıb, tədbirin respublikanın müxtəlif ali məktəbləri, elmi tədqiqat müəssisələri, eyni zamanda AMEA-nın institut və təşkilatlarından daxil olmuş elmlər və fəlsəfə doktoru hazırlığı üzrə dissertasiya mövzularının təsdiqi məsələlərinə həsr olunduğunu deyib.

Sonra Problem şurasının sədri R.Əliquliyev 24 elmlər və 44 fəlsəfə doktoru hazırlığı üzrə daxil olmuş dissertasiya mövzularını təqdim edib.

Hər bir mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb, iddiaçılar problem şurası üzvlərinin suallarını cavablandırıblar.

Sonda dissertasiya mövzuları ilə bağlı müvafiq qərarlar qəbul olunub.

## *Akademik Rasim Əliquliyev:*

# "Yüksək Texnologiyalar Parkı qarşısına qoyulan strateji vəzifələrin həyata keçirilməsi istiqamətində inamla çalışır"

**Bu il Azərbaycanda elm, texnologiya və innovasiya sahəsində uğurla fəaliyyət göstərən AMEA Yüksək Texnologiyalar Parkının (YT Parkı) yaranmasından 5 il ötür.**

AMEA-nın vitse-prezidenti, YT Parkının Ekspertlər Şurasının sədri, akademik Rasim Əliquliyev bu qurumun fəaliyyətinin prioritet istiqamətləri, perspektivdə görüləcək işlər, eləcə də Ekspertlər Şurasının qarşısında duran vəzifələrə dair suallarımızı cavablandırıb.

**- Rasim müəllim, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin inkişafını hədəfləyən YT Parkının 5 il ərzindəki fəaliyyətini necə qiymətləndirirsiniz?**

- Sualınıza keçməzdən əvvəl Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzün bərpası uğrunda qazanılan tarixi qələbənin ildönümü, 8 Noyabr - Zəfər Günü, eyni zamanda 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə xalqımızı təbrik edir, dövlətimizin və bayrağımızın hər zaman yüksəklərdə olmasını arzu edirəm.

Müasir dövrdə bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da elmin maliyyələşdirilməsi və kommersiyalaşdırılması, innovativ biliklərin artırılması, eləcə də idxal və ixrac potensialını yüksəltməklə dünya bazarına çıxışın təmin edilməsi son dərəcə aktual məsələlərdir.

2016-cı il noyabrın 8-də Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə yaradılmış YT Parkı fəaliyyətə başladığı ilk gündən etibarən qarşısına elmtutumlu, rəqabətqabiliyyətli və innovativ məhsulların istehsalını həyata keçirməyi, elmi nəticələri kommersiyalaşdırmağı, intellektual biznesin formalaşdırılması istiqamətində özəl sektor və akademik qurumlarla əməkdaşlıq etməyi məqsəd qoymuşdur.

5 ildir ki, Yüksək Texnologiyalar Parkı elmi-tədqiqat işlərinə investisiyaların cəlb olunması, bu istiqamətdə sərmayə yatıran özəl sektora müəyyən güzəştlərin edilməsi və sahibkarlar üçün əlverişli innovativ biznes mühitinin yaradılması yolu ilə strateji hədəflərə doğru irəliləyir, həmçinin AMEA-nın elmi-texnoloji əlaqələrinin genişləndirilməsində mühüm rol oynayır.

Son zamanlar YT Parkda AMEA rəhbərliyinin birbaşa dəstəyi ilə geniş islahatlar həyata keçirilir, innovativ layihələr icra olunur, şəffaf mühit formalaşır. Texnoparka yeni rezidentlərin qəbul olunması, erkən inkişaf mərhələsində olan startapların dəstəklənməsi və ümidverici layihələrin həyata keçirilməsi bu qurumun fəaliyyətinin daha səmərəli təşklinə imkan verir. Bu müəssisə qarşısına qoyulan strateji vəzifələrin həyata keçirilməsi istiqamətində inamla çalışır.

**- YT Parkın fəaliyyətinin səmərəli təşklində Ekspertlər Şurası da mühüm rola malikdir. İstərdik bu barədə məlumat verəsiniz.**

- AMEA YT Parkın nəzdində fəaliyyət göstərən Ekspertlər Şurasının əsas vəzifəsi texnologiyalar parkında rezident kimi qeydiyyata alınma ilə əlaqədar müraciət etmiş ərizəçilər tərəfindən təqdim olunan layihələrin qiymətləndirilməsi, mütəxəssislərin iştirakı ilə geniş müzakirələrin təşkili, layihələrin həyata keçirilməsi üçün elmi dəstəyin verilməsindən ibarətdir. Ekspertlər şurası həm də innovasiya məhsullarının hazırlanması sahəsində nailiyyətlərin, qabaqcıl təcrübənin öyrənilməsi, onların tətbiqinə dair təkliflərin hazırlanmasını reallaşdırır. Şura üzvləri, eyni zamanda texnoparkda hazırlanmış texnologiyaların, elmi-texnoloji tutumlu məhsulların tətbiqi və istehsalı ilə əlaqədar texniki-iqtisadi əsaslandırmalara rəylər verir.

Şura, həmçinin YT Parkının rezidentləri ilə AMEA-nın elmi müəssisə və təşkilatları arasında münasibətlərin qurulmasında və əməkdaşlığın inkişafında da mühüm rol oynayır. Əldə olunmuş elmi nailiyyətlərin tətbiqi, innovativ təklif və elmi ideyaların YT Parkının texnoloji platforması əsasında reallaşdırılması və kommersiyalaşdırılmasına intellektual dəstək verir.

Bütövlükdə, Ekspertlər Şurası yeni rezidentlərin seçilməsi ilə yanaşı, Parka elmi dəstək vermək, elm, təhsil və istehsalat arasında intellektual qovşaq, körpü yaratmaq vəzifəsini yerinə yetirir.

**- Rasim müəllim, Yüksək Texnologiyalar Parkının qarşısında duran əsas vəzifələr və bu müəssisənin prioritetləri haqqında danışmağınızı istərdik.**



- Bilirsiniz ki, Azərbaycan elminin dünyada baş verən elmi-texnoloji proseslərdə fəal mövqe tutması üçün yüksək texnologiya və innovasiya siyasətinə diqqət yetirilməsi vacib məsələdir. Dövlət başçısının bu sahədə apardığı siyasətə, qəbul etdiyi qərar və sərəncamlara əsasən, İKT infrastrukturunun inkişaf etdirilməsi, onun əsasında keyfiyyətli xidmətlərin göstərilməsi, yüksək texnologiyalar sahəsində elmi-texniki potensialın gücləndirilməsi, elmi tədqiqatların genişləndirilməsi, eləcə də qeyri-neft sektorunun inkişafı və biliklər iqtisadiyyatının formalaşdırılması bu gün müasir Azərbaycan elminin qarşısında duran əsas vəzifələrdəndir. Yüksək Texnologiyalar Parkında da bu vəzifələrdən irəli gələn məsələlərin həlli, Azərbaycan istehsalı olan ixrac potensiallı yüksək texnologiya məhsullarının hazırlanması ilə əlaqədar bütün ideya və layihə müəlliflərinin cəlb edilməsi üçün geniş imkanlar yaradılmışdır.

Xaricdən alınan xammalların tədricən yerli xammallarla əvəzlənməsi ilə yüksək keyfiyyətli Azərbaycan brendinin yaradılması da müəssisənin əsas hədəflərindəndir.

YT Parkı öz fəaliyyətində intellektual resurslar, gənc tədqiqatçılar və tələbələrin bu müəssisəyə cəlb olunması, startap layihələrin həyata keçirilməsi, eləcə də kadr potensialının gücləndirilməsi işlərinə də önəm verir.

Biz ümid edir və inanırıq ki, YT Parkda elmin maliyyələşdirilməsi, qeyri-neft sektorunun inkişafı və biliklər iqtisadiyyatının formalaşdırılması istiqamətində həyata keçiriləcək kompleks və ardıcıl tədbirlər ölkəmizdə kiçik və orta elmi sahibkarlığın inkişaf etdirilməsinə və milli iqtisadiyyatda onun payının artırılmasına gətirib çıxaracaqdır.

**- Hazırda YT Parkın tərkibində 13 rezident fəaliyyət göstərir. Onların yerli, rəqabətədavamlı məhsulların istehsalı, xarici bazarlara çıxarılması və bu istiqamətdə perspektivləri barədə nə deyə bilərsiniz?**

- YT Parkı ölkəmizdə elmin kommersiyalaşdırılması və texnologiyaların transferi, dövlətin elmi məhsullara olan tələbatının ödənilməsi, müxtəlif qurumlarla elmi müəssisələr arasında əlaqə yaradılması istiqamətində böyük potensiala malikdir. Bu qurumda rəqabətədözümlü texnoloji məhsulların hazırlanması, ölkənin intellektual potensialının cəlb olunması, xarici ölkələrdən investisiya axının həyata keçirilməsi, o cümlədən startaplara dəstək verilməsi üçün geniş imkanlar yaradılmış və bu sahədə bir sıra mühüm işlər icra olunmaqdadır. Rezidentlər elmlə istehsalat arasında birbaşa əlaqələrin yaradılmasında fəal rol oynayırlar.

Bundan əlavə, YT Parkın baş planı təsdiq olunmuşdur ki, burada ölkəmizə investisiya cəlb olunmasına xidmət edən, milli maraqlara söykənən, rəqabətədavamlı məhsulların istehsalının təşkili istiqamətində mühüm işlərin görülməsi nəzərdə tutulur.

YT Parkda sahibkarlara infrastruktur obyektlərinin istismarı üçün zəruri olan qaz, istilik, rabitə, elektrik və su təminatı ilə bağlı güzəştlər, müvafiq imtiyazlar tətbiq olunur ki, bu da onların daha səmərəli fəaliyyət göstərmələrinə, müəyyən kommunal ödəmələrdən azad olmalarına imkan yaradır.

Hazırda ölkəmizdə milli intellektual potensiala böyük tələbat yaranıb. Nəzərə alsaq ki, texnoparkların inkişafı onların rezidentlərinin sayı və inkişafı ilə müəyyən olunur, bu baxımdan YT Parkın da rezidentlərinin sayının artırılması vacib məsələlərdəndir.

Hesab edirəm ki, sahibkarlar AMEA-nın elmi-intellektual potensialından daha da səmərəli istifadə etməli, YT Parkda təqdim olunan güzəşt və imtiyazlardan məqsədyönlü şəkildə faydalanmalıdır.

Son zamanlar YT Parkın sahibkarlarla birgə səmərəli fəaliyyətinin nəticəsidir ki, daxili bazarda Azərbaycan brendinin yaradılması üçün geniş imkanlar açılıb. Bu da, ümumilikdə yaxın gələcəkdə ölkənin həm idxal, həm də ixrac potensialının yüksəldilməsinə təkan verəcəkdir. Həmçinin gələcəkdə müxtəlif yerli məhsulların ixracat qabiliyyətinin artırılmasına, yeni iş yerlərinin açılmasına, Azərbaycan bazarının xarici idxaldan asılılığının azaldılmasına gətirib çıxaracaqdır.

Onu da qeyd edim ki, YT Parkın fəaliyyətinin daha səmərəli təşkili məqsədilə elmi müəssisələr və rezidentlərlə səmərəli, çevik əlaqələrin qurulması son dərəcə zəruridir. Elm tutumlu layihələrin istehsalata tətbiqi, onların kommersiyalaşdırılması məqsədilə istehsalçılar, sahibkarlar, maliyyə donorları və alimlərin birgə fəaliyyəti önəmlidir. Əslində, Ekspertlər şurasının iclaslarında rezidentlik üçün təqdim olunan layihələrin müzakirəsi zamanı AMEA-nın elmi müəssisə və təşkilatlarının elmi potensialı diqqət mərkəzinə gətirilir, əməkdaşlıq üçün perspektivlərə xüsusi diqqət yetirilir. Çünki YT Parkı ilk növbədə yüksək texnologiyalara əsaslanan innovativ ideyaların reallaşdırılması və intellektual məhsulların istehsalı üçün yaradılmış platformadır və onun rəqabətə davamlılığı məhz intellektual potensialın bu prosesdə nə dərəcədə iştirakı ilə birbaşa bağlıdır.

**- Hörmətli Rasim müəllim, hazırda IV Sənaye inqilabının çağırışları, süni intellekt texnologiyalarının tətbiqi ilə dünya bazarında intellektual məhsulların çəkisi çox sürətlə artmaqdadır. Bu baxımdan ölkəmizdə elmin kommersiyalaşdırılması, yüksək texnologiyaların tətbiqi sahəsində YT Parkın perspektivlərini necə qiymətləndirirsiniz?**

- Hər şeydən əvvəl onu deyim ki, dünyada və ölkəmizdə baş verən rəqəmsal transformasiyalar, virtuallaşma prosesləri kontekstində Azərbaycan elminin strateji vəzifələri müəyyənləşdirilərkən IV Sənaye inqilabının, süni intellekt texnologiyalarının təsiri ilə meydana gələn kompleks problemlər istisnasız olaraq bütün elm sahələrinin tədqiqat predmetinə çevrilməlidir.

Hər kəsə məlumdur ki, qlobal informasiya cəmiyyətinin hazırkı inkişaf səviyyəsində İKT cəmiyyətin bütün sferalarına təsir edir. Rəqəmsal transformasiya dövründə əhəmiyyətli inkişafa nail olmaq, IV Sənaye inqilabı proseslərindən geri qalmamaq üçün ölkəmizdə tətbiqi elm və biznes arasında inteqrasiyanı gücləndirməli, süni intellekt sahəsində multidissiplinar tədqiqatlar aparmalı, yüksəkixtisaslı kadrlar yetişdirməliyik.

Bütün bunları nəzərə alaraq, IV Sənaye inqilabının gətirdiyi yeniliklər, süni intellekt, Big Data texnologiyaları və Əşyaların internetinin tətbiqi şəraitində YT Parkı da öz fəaliyyətini dünya standartlarına uyğunlaşdırmalıdır.

Digər tərəfdən, Azərbaycanın iqtisadi prioritetləri və strateji maraqları nəzərə alınaraq tətbiqi tədqiqatların aparılması baxımından YT Parkı əhəmiyyətli rola malikdir. Bu qurum öz fəaliyyətində biliklər iqtisadiyyatının tələbləri, milli innovativ mühitin formalaşmasının əsas prinsiplərini rəhbər tutaraq nüvə, nano, bio və informasiya texnologiyalarının istifadəsinə diqqət ayırmalıdır.

Düşünürəm ki, bu gün Azərbaycanda prioritet istiqamətlərdə aparılan elmi tədqiqatların istehsalatda tətbiqi, rəqabətqabiliyyətli məhsulların istehsalı xaricə kapital axınının qarşısını alacaq, milli məhsulların dünya bazarına çıxarılmasına şərait yaradaraq ölkə iqtisadiyyatının inkişafına töhfələr verəcəkdir.

Bundan əlavə, hazırda torpaqlarımızın erməni işğalından azad edilməsi, dağıdılmış ərazilərdə irimiqyaslı quruculuq işlərinə başlanılması, ölkəmizdə aparılan innovativ islahatlar, biliklər iqtisadiyyatının formalaşması, smart texnologiyalara əsaslanan infrastruktur layihələrinin icrası, IV Sənaye inqilabının Azərbaycanda Regional Mərkəzinin yaradılması, dünyanın qlobal çağırışları və digər məsələlərlə bağlı Azərbaycan elminin qarşısında ciddi və taleyüklü vəzifələr dayanır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət, o cümlədən, ”yaşıl cəmiyyət”in formalaşdırılması, innovativ ekosistemin yaradılması, azad olunmuş ərazilərin ”yaşıl enerji” zonasına çevrilməsi, həmçinin ”ağıllı şəhər” və ”ağıllı kənd” konsepsiyalarının tətbiqi ölkəmizin bir sıra problemlərinin həlli məsələlərinə də sistemli yanaşma tələb edir və alimlərimizin qarşısında prioritet vəzifələr qoyur.

Heç şübhəsiz ki, qabaqcıl texnologiyalara söykənən, innovativ və elmtutumlu layihələri həyata keçirməyi nəzərdə tutan bir müəssisə kimi YT Parkın da Qarabağda aparılan yenidənqurma və bərpa işləri prosesində iştirakı vacib məsələlərdəndir.

**- Hər bir müəssisənin fəaliyyətinin müasir tələblər əsasında qurulması üçün onun xarici dövlətlərlə əməkdaşlıq əlaqələrinin təşkili, birgə layihələrin həyata keçirilməsi və təcrübə mübadiləsinin aparılması vacib məsələlərdəndir. YT Parkda beynəlxalq əlaqələrin gücləndirilməsi istiqamətində görülən işlər barədə danışmağınızı xahiş edirik.**

- Bu gün Azərbaycanda prioritet istiqamətlərdə aparılan tədqiqatların və innovativ layihələrin istehsalatda tətbiqi, elmin maliyyələşdirilməsi və dünya bazarına çıxış son dərəcə aktual məsələlərdir. Bu məqsədlə yüksək texnologiyalardan istifadə edilməsi, dövlət sifarişlərinin qəbulu, eləcə də xarici təcrübənin öyrənilməsi beynəlxalq əlaqələrin genişləndirilməsini zəruri edir.

Dünyanın nüfuzlu elm və texnologiya mərkəzləri ilə müvafiq istiqamətlərdə təcrübə mübadiləsinin aparılması, birgə layihə və inkişaf proqramlarının həyata keçirilməsi, o cümlədən seminar və konfransların təşkili YT Parkın qarşısında duran əsas vəzifələrdəndir.

Bu müəssisə elmi nailiyyətlərin istehsalata və ölkə iqtisadiyyatına tətbiqini sürətləndirmək üçün mütəmadi olaraq xarici həmkarları ilə görüşlər təşkil edir, birgə elmi-texniki proqramlar, innovativ layihələr həyata keçirir. Başqa sözlə, YT Park ölkəmizə investisiya qoymaq təşəbbüsündə olan xarici şirkətlərin innovativ layihə və tenologiyalarının tətbiqi üçün qarşılıqlı maraq əsasında transfer mərkəzi funksiyasını daşıya bilər.

**- Hörmətli Rasim müəllim, YT Parkın Azərbaycanın ”Silikon Vadisinə” çevrilməsi, ölkəmizdə elm-təhsil-istehsalat qızıl üçbucağının formalaşmasında rolunun yüksəldilməsi üçün hansı tədbirlər görülməlidir?**

- Qeyd etdiyimiz kimi, ölkə başçısı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə Elmlər Akademiyasında YT Parkın yaradılmasından artıq 5 il keçir. Ötən dövr ərzində elmi nəticələrin kommersiyalaşdırılması, elmtutumlu məhsulların istehsalı, elm-təhsil və istehsalat arasında əlaqələrin gücləndirilməsi istiqamətdə bir sıra mühüm addımlar atılmışdır. Xüsusilə də son dövrlərdə, Elmlər Akademiyasında fundamental elmlərlə yanaşı, tətbiqi tədqiqatlara, innovasiya yolu ilə yüksək elmitutumlu məhsulların istehsal edilməsi, bütövlükdə elmin iqtisadi funksiyasının gücləndirilməsi, elmi nailiyyətlərin kommersiyalaşdırılması və milli intellektual məhsulların çəkisinin artırılması kimi məsələlərə xüsusi önəm verilir.

Akademiyada həyata keçirilən kompleks islahatlara müvafiq olaraq, son illər ərzində Parkın qarşısına qoyulan vəzifələr yenidən kompleks qiymətləndirilmiş, bu sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla, Parkın fəaliyyəti dərindən təhlil olunmuş, onun fəaliyyətinə mane olan bir sıra problemlər aradan qaldırılmış, innovativ ideya və layihələrin cəlb edilməsi üçün münbit şərait yaradılmışdır. Şübhəsiz ki, bu sahədə yüksək nailiyyətlərin əldə olunması müəyyən qədər zaman tələb edir. Əlbəttə ki, məqsədimiz AMEA YT Parkı ”elm-təhsil-istehsalat” münasibətləri qovşağının uğurlu bir nümunəsinə, intellektual məhsulların istehsalı, vençur kapitalın cəlb edilməsi, gənclərin startap layihələrinin həyata keçirilməsi, alimlərin, ali təhsil müəssisələrinin müəllim və tələbələrinin innovativ ideyalarının tətbiqi üzrə, sözün əsl mənasında, ölkəmizin ”Silikon vadisinə” çevirməkdən ibarətdir. Park, həmçinin nəinki ölkə daxili, eyni zamanda, xarici investisiyanın cəlb edilməsi, ölkə iqtisadiyyatında intellektual məhsulların çəkisinin artırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından mühüm strateji hədəflərə nail olmağı qarşısına məqsəd qoymuşdur.

Bilirsiniz ki, hər bir layihənin reallaşdırılması zamanı innovativ texnologiyalara üstünlük verilməsi və elmi tədqiqatların sənayedə tətbiqi müasir dövrün başlıca tələbidir. Böyük investisiya layihələrinin həyata keçirilməsi ilə yeni iş yerlərinin açılması, milli məhsulların dünya bazarına çıxarılması, yüksək texnologiyalar sahəsində peşəkar mütəxəssislərin yetişdirilməsi YT Parkın Azərbaycanda biliklər iqtisadiyyatının formalaşmasında aparıcı mövqe tutan lokomotivlərindən birinə çevrilməsinə gətirib çıxara bilər.

**Müsahibəni apardı:**
**Nərgiz QƏHRƏMANOVA**
**AMEA Rəyasət Heyəti aparatının**
**İctimaiyyətlə əlaqələr və informasiya**
**şöbəsinin sektor müdiri, dissertant**

# AMEA prezidenti katibliyinin rəisi: "Antropoloji tədqiqatlar aparılmadan xalqın etnogenezi haqqında danışmaq elmi əsaslardan uzaq bir təşəbbüsdür"

**Qərb dünyasının müasir siyasi elmində ən aktual istiqamətlərdən biri də siyasi antropologiyadır. Postsovet məkanı üçün yeni olan və az tanınan siyasi antropologiya kursunun tədrisi hətta Rusiyanın aparıcı universitetlərində son 15-20 ili əhatə edir. ABŞ, Kanada və Avropanın aparıcı elmi mərkəzlərində də son illər siyasi antropologiya bir çox elmi araşdırmaların, dissertasiyaların, məqalə və monoqrafiyaların predmetinə çevrilib.**



Azərbaycanda siyasi antropologiyanın inkişaf perspektivlərinə dair araşdırmaların, eyni zamanda müvafiq sahədə Rusiya və Türkiyə təcrübəsi ilə bağlı fundamental tədqiqatların müəllifi olan AMEA prezidenti katibliyinin rəisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Eldar Əmirov müsahibəsində siyasi antropologiyanın bir çox maraqlı aspektləri barədə suallarımızı cavablandırıb.

**- Bildiyimiz kimi, bu yaxınlarda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun adına "Antropologiya" istiqaməti də əlavə olunub. Bu addım ölkəmizdə antropologiya elminin inkişafı baxımından nə kimi yeniliklər vəd edir?**

- Bu yaxınlarda Azərbaycan Respublikasının Nazirlər Kabineti AMEA-nın müraciəti əsasında AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun adının dəyişdirilərək Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu adlandırılmasına dair qərar qəbul etmişdir. Təbii ki, bu, müasir elmdə meydana çıxan zərurətlə əlaqədardır. Belə bir müraciətin edilməsinin arxasında kifayət qədər ciddi səbəblər durur. İlk növbədə qeyd edim ki, Azərbaycanda antropologiya sahəsi istər Sovet dövründə, istərsə də müstəqillik illərində arzu olunan səviyyədə inkişaf etməyib. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var.

Məlum olduğu kimi, Sovet dövründə antropologiya elmi Moskva kimi mərkəzi şəhərlərdə cəmləşdirilirdi və mütəxəssislər bu şəhərlərdə yetişdirildiyindən əyalətlərdə, o cümlədən Azərbaycanda bu sahənin inkişafına diqqət yetirilməyib. Digər tərəfdən, müstəqillik dövründə antropologiya sahəsində müəyyən qədər tədqiqatlar aparılıb, lakin təəssüflər olsun ki, sistemli şəkildə tədqiqatlar aparılmadığından bu sahənin inkişafından danışmaq üçün tezdir. Bütün bunları nəzərə alaraq, AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev Rəyasət Heyətinin iclaslarında bu məsələni dəfələrlə qaldırmış və yekunda Nazirlər Kabinetinə müraciət edilərək Arxeologiya və Etnoqrafiya İnstitutunda antropologiyanın müstəqil elm sahəsi kimi yaradılması və tədqiqinə qərar verilmişdir.

Düşünürəm ki, Azərbaycanda antropologiya sahəsi kifayət qədər geniş perspektivlərə malikdir. Belə ki, antropologiya olmadan bir çox humanitar sahələrin, o cümlədən tarixin elmi əsaslar üzərində inkişafına nail olmaq mümkün deyil.

Azərbaycan müstəqillik qazandıqdan sonra onun etnogenezi, mənşəyi, formalaşma mərhələləri haqqında istər tarixçilər, istər filosoflar, istərsə də filoloqlar tərəfindən çoxlu sayda əsərlər ərsəyə gətirilib. Lakin bu əsərlərin böyük əksəriyyəti müvafiq antropoloji-genetik araşdırmaların mövcud olmaması səbəbindən elmi bazadan məhrumdur.

Antropoloji təhlillər və tədqiqatlar aparılmadan hər hansı bir xalqın etnogenezi haqqında danışmaq elmi əsaslardan uzaq bir təşəbbüsdür. Buna görə də, hazırda dövlət səviyyəsində milli ideologiya ilə bağlı bu məsələyə maraq kifayət qədər böyükdür. Hər bir xalq kimi, Azərbaycan xalqı da öz tarixi yaddaşını, köklərini, mənşəyini bilməlidir. Antropologiya elminin inkişafına nail olmadan bu məsələlər haqqında danışmaq mümkün deyil.

Qeyd edim ki, hazırda fəlsəfə doktorluğu dissertasiyam əsasında hazırladığım siyasi antropologiya məsələlərini əhatə edən kitabım üzərində işləyirəm. Yaxın zamanda kitabın işıq üzü görməsi planlaşdırılır.

**- Eldar müəllim, bildiyimiz kimi, fəlsəfə doktorluğu dissertasiyanız Azərbaycan xalqının siyasi antropologiyası məsələlərinə həsr olunub. Bununla yanaşı, Bakı Slavyan Universitetində "Azərbaycan xalqının siyasi antropologiyası" fənninin tədrisi ilə məşğul olmusunuz. Həmçinin Azərbaycan Dillər Universitetində "Rusiyada siyasi antropologiya: tarix və müasirlik" mövzusunda ictimai mühazirə ilə çıxış etmisiniz. Qloballaşma, cəmiyyətin sosiallaşması və beynəlxalq elmi əlaqələrin inkişafı nəticəsində antropologiya elmində hansı yeniliklər baş verib?**

- Antropologiya müasir dövrdə ABŞ, Kanada, Avropa ölkələrində, Rusiyada ən çox tədqiq olunan sahələrdən biridir. Antropoloji elmi istiqamətin yaradılması çox çətin bir prosesdir. Bildiyimiz kimi, antropologiya fənlərarası, elmlərarası bir istiqamət olduğundan burada təkcə humanitar sahə ilə kifayətlənmək doğru deyil. Antropologiya özü 3 istiqamətdən ibarətdir: antropogenez, irqşünaslıq və siyasi antropologiya.

Tarixçilər antropogenez və irqşünaslıq sahəsində fikir bildirmək üçün müvafiq bioloji sahədə təcrübə keçməlidirlər. Humanitar sahə ilə daha çox bağlı olan siyasi antropologiyanın mövzusu xalqın dövlətçiliyinin siyasi inkişafının onların antropoloji xüsusiyyətləri ilə əlaqəsidir. Bu sahə, əsasən, müstəmləkəçilik dövründə Böyük Britaniyalılar tərəfindən formalaşdırılıb. Məqsəd xalqların psixologiyasını nəzərə alaraq daha az resurs sərf etməklə müstəmləkələri idarə etmək imkanına malik olmaq idi. Təbii ki, xalqların psixologiyasını, onların siyasi inkişafının xüsusiyyətlərini bilmədən bunu etmək qeyri-mümkün idi.

Təəssüflər olsun ki, Azərbaycanda antropologiya ilə əlaqədar tədqiqatları bəzən irqçiliklə səhv salırlar. Belə bir təsəvvürün formalaşmasının arxasında müəyyən faktlar var. Xüsusilə XIX əsrin ikinci yarısından etibarən Avropada antropologiya məsələləri məhz irqşünaslığın bazasında formalaşdı. Məsələn, Fransanın böyük filosofu, diplomatı və mütəfəkkiri Josef Artur de Qobino bəşər irqlərinin qeyri-bərabərliyinə dair məşhur əsərini ərsəyə gətirdi və burada alilik ideyasını ortaya atdı, bəzi irqlərin digərlərindən üstün olduğunu bildirdi. Sonralar bu məsələ elmi müstəvidən çıxaraq siyasiləşdi. 1933-cü ildə nasistlər Almaniyada hakimiyyətə gələn zaman Adolf Hitler həm öz planlarını həyata keçirmək, həm də digər xalqlara qarşı soyqırımı gerçəkləşdirmək üçün bu ideyalardan məharətlə istifadə etdi.

Buna görə də antropoloji tədqiqatlar zamanı daha diqqətli olmalı, məsələnin qoyuluşu, izahı zamanı elmi müstəvidən kənaraçıxmalara yol verilməməlidir. Antropologiya müstəqil elm sahəsidir və əsas məqsədi insanı, xalqların təkamülü və onlar arasındakı fərqləri öyrənməkdir. Botanika bitkiləri, zoologiya heyvanları öyrəndiyi kimi, antropologiya da insanları, bəşəriyyətin inkişafını, onun növlərini, inkişaf xüsusiyyətlərini öyrənir. Bu səbəbdən antropologiya və irqçilik anlayışlarının səhv salınması ciddi problemlərə səbəb ola bilər.

Qeyd edim ki, bu istiqamətdə dini baxımdan yanaşmalara, Allahın hər kəsi eyni yaratdığına dair mülahizələrə də rast gəlinir. Lakin Qurani-Kərimdə Rumlular surəsində də qeyd olunur ki, xalqların, dinlərin, dillərin müxtəlifliyi Allahın qüdrətinin göstəricisidir. Beləliklə, Qurani-Kərim özü də antropologiyanı irqşünaslıqdan ayırır.

Tarixi təcrübə göstərir ki, Şərq xalqlarında əksər hallarda lider, şəxsiyyət amili birinci dərəcəli amildir. Şərq xalqlarının siyasi tarixində sistem anlayışına az-az rast gəlinir. Fərd, fərdin keyfiyyətləri üzərində qurulmuş sistemlər isə davamlı inkişaf edə bilmir. Qərbdə isə hər şey sistemin üzərində qurulub. Buna görə də xalqın psixologiyasını öyrənmək, fərdçiliyi aradan qaldırmağın yollarını tapmaq üçün siyasi antropologiyanın inkişafına diqqət yetirməliyik.

Bir məsələni də qeyd etmək istərdim. Ərəblər Qafqaza gələndə həm Azərbaycan, həm də gürcü xalqının dini xristianlıq idi. Lakin gürcülərdən fərqli olaraq azərbaycanlılar İslam dinini qəbul etdi, alban milli kimliyi aradan qaldırıldı, bu sivilizasiya yoxa çıxdı. Bu məsələnin araşdırılması da siyasi antropologiyanın predmetidir. Buna görə də siyasi antropologiya digər istiqamətlərdən daha həssas sahədir. Yanlış stereotiplərin yaranmasının qarşısını almaq üçün dəqiq tarixi faktlar, antropoloji materiallar əsasında elmi araşdırmalar aparılmalıdır.

Digər tərəfdən, tarixin müxtəlif dövrlərində Çin və s. kimi ölkələrdə xalqın psixologiyasını və genetikasını dəyişmək üçün qida və dərman vasitələrindən geniş istifadə olunub. Məsələn, Çində oğlanların hərbi xidmətə yararlılığını artırmaq üçün bu vasitələrdən istifadə olunub və 5-7 sm boy artımına nail olunub. Albanların boyunun uzun olduğunu bilmək üçün Şəkidə Kiş məbədindəki 195 sm cəsədi nümunə çəkmək olar. Lakin XIX əsrdən etibarən azərbaycanlıların boyu kiçilməyə başlayıb. Buna görə də, baş verən proseslərin təbii və ya süni müdaxilə yolu ilə olduğunu anlamaq üçün antropoloji tədqiqatlar zamanı bioloqların da iştirakı zəruridir. Bununla yanaşı, tarixdə əhalinin intellektual fəallığına təsir edən dərman vasitələrindən də istifadə olunub.

**- Dünya elm sistemində mövqeyi getdikcə möhkəmlənən siyasi antropologiya istiqaməti üzrə dünya təcrübəsinin öyrənilməsinin əhəmiyyəti barədə danışardınız. Dünyanın görkəmli siyasi antropoloqları və nəzəriyyəçilərinin əsərləri və fikirlərinin təhlili Azərbaycanda yeni olan siyasi antropologiya elmi istiqamətinin inkişafında nə kimi rol oynayır?**

- Azərbaycanda antropologiyanın inkişafı ilə bağlı birdən-birə ciddi nəticələr gözləmək doğru deyil. Çünki Sovet dövründə bu istiqamətdə yalnız epizodik təhlillər, səthi tədqiqatlar aparılıb. Bu səbəbdən hesab edirəm ki, ilk növbədə kadr hazırlığı məsələsinə xüsusi önəm verilməli, tarixçilər üçün biologiya sahəsində, bioloqlar üçün isə humanitar sahədə tarixin öyrənilməsi istiqamətində hazırlıq keçirilməlidir. Bu iki sahənin sintezi aparılmadan antropologiyanın inkişafından danışmaq mümkün deyil. İkinci məsələ, antropologiya klassiklərinin dilimizə tərcüməsi həyata keçirilməli, elmin banilərinin fikirləri öyrənilməlidir.

Bununla bərabər, bu sahədə müsbət təcrübə ilə yanaşı, mənfi təcrübəni də mənimsəmək, bu yanlışlara yol verməmək üçün həmin dövrdə yanlış anlaşılan, elmin inkişafına səhv istiqamət verən fikirlər də tərcümə edilməlidir. Filosof Josef Artur de Qobinonun fikirlərinin qeyri-elmiliyini sübut etmək, antropologiya və irqçilik arasındakı sərhəddin nə zaman itdiyini anlamaq üçün, ilk növbədə onun əsərlərini oxumaq lazımdır.

Vurğulamaq istərdim ki, Avropalılarla yanaşı, müsəlman aləmində də antropologiya irqçiliklə səhv salınıb. Orta əsr müsəlman mütəfəkkirlərinin, xüsusən VIII-IX əsrləri əhatə edən əsərlərə nəzər salsaq görərik ki, bu mövzu millətlərarası müharibələrin predmetinə çevrilib. Orta əsr mütəfəkkirlərinin əsərləri antropologiyadan daha çox müşahidə xarakteri daşıyır və onları elm hesab etmək doğru deyil. Lakin antropoloji etnopsixologiyanın dərk edilməsi üçün bu əsərlər əhəmiyyətli mənbədir. Bu baxımdan "Əxlaqi-Nasiri", "Qabusnamə" əsərlərini nümunə göstərmək olar.

Bəzən həmin dövrün müsəlman mütəfəkkirləri öz fikirlərini sübut etmək üçün uydurma məlumatlar təqdim edirdilər, Quran ayələrini təhrif edirdilər. Məsələn, farslar ərəbləri aşağılamaq üçün Allahın fars dilində danışdığını, axirət dilinin fars dili olduğunu, ərəblərin bədəvi olduğunu bildirirdilər. Eyni fikirləri ərəblər də farslar üçün deyirdilər. Bu da son nəticədə irqçiliyin, millətçiliyin yaranmasına gətirib çıxarırdı. Abbasilərin hakimiyyəti dövründə yaradılmış, bu fikirlərə qarşı çıxan, əsas məqsədi ərəblərin digər xalqlardan üstün olmadığını göstərmək olan Şubiyə hərəkatı iranlılar, türklər və digər qeyri-ərəb millətlərinin cəlb olunduğu intellektual hərəkat idi. Lakin təəssüflər olsun ki, bu məsələ də qısa zamanda siyasiləşdi və millətçilik zəminինə keçdi. Digər millətləri alçaldan əsərlər arasında dövrün tanınmış mütəfəkkirlərinin də əsərlərinə rast gəlmək mümkündür.

**- AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev öz çağırışlarında bildirib ki, "dünya elmi tərəfindən təsdiq edilmiş müasir intizamların tətbiqi olmadan universitet səviyyəsində humanitar elmlərin təbliğ edilməsinin keyfiyyətini yüksəltmək və siyasi proses və tarixi reallıqları düzgün dərk etmək mümkün olmayacaq". Bu fikirlərə necə münasibət bildirərdiniz?**

- Akademik Ramiz Mehdiyev hələ 2018-ci ildə Moskvada çıxmış "Yeni dünya nizamı və milli ideya" əsərində antropologiyanın əhəmiyyətinə toxunub, onun sahələri, Azərbaycan xalqının antropogenezi barədə məlumat verib, ümumi antropoloji nəzəriyyələrə toxunub. Akademik bu əsərində antropologiya olmadan Azərbaycan tarixinin keyfiyyətcə yenidən işlənilməsinin mümkün olmadığını qeyd edib. Çünki bütün bu yeni ideyalar elmi əsaslara söykənməlidir. Xüsusilə etnogenezlə bağlı nəzəriyyələrin elmi dövriyyədə qalması üçün onun elmi əsası olmalıdır. AMEA prezidenti bu məsələlərə həm akademiyada keçirilən görüşlərdə, həm də əsərlərində davamlı olaraq yer ayırır. Sevindirici haldır ki, antropologiyanın müstəqil istiqamət kimi formalaşması da məhz akademik Ramiz Mehdiyevin AMEA-ya rəhbərlik etdiyi dövrə təsadüf edib. İnanıram ki, AMEA prezidenti bu məsələyə də öz töhfələrini verəcək və onun rəhbərliyi dövründə bu sahədə ciddi nəticələr əldə olunacaq.

**- Ölkəmizdə siyasi antropologiyanın inkişafına nail olmaq üçün hansı addımlar atılmalıdır? Bu istiqamətdə Rusiyanın müvafiq qurumları ilə əməkdaşlıq əlaqələrinin qurulması nəzərdə tutulurmu?**

- Ümumiyyətlə, siyasi antropologiya sahəsində dünya təcrübəsinin öyrənilməsi zəruri məsələdir. Siyasi antropologiya, əsasən, müstəmləkəçilik məqsədləri üçün istifadə edildiyindən həmin sahənin ölkənin öz potensialı hesabına öyrənilməsi vacib amildir. Təbii ki, bu istiqamətdə addımlar atmaq üçün həm Rusiyanın, həm də Qərb ölkələrinin təcrübəsindən yararlanmalıyıq. İlk növbədə kadr hazırlığı məsələləri ilə məşğul olmalıyıq, bu sahədə toplanmış təcrübəni təhlil etməli və qərəzli, ideoloji məqamları süzgəcdən keçirməliyik.

Ümumi antropologiyada bəşəriyyətin mənşəyi, inkişafı, müəyyən coğrafi mövqelərdə yerləşməsi kimi tədqiqatlara yer ayrılır, hər bir xalqın etnogenezindəki fərqlər isə fərdi xarakter daşıyır. Ümumi antropologiya üzrə digər ölkələrlə əməkdaşlıq etmək mümkündür. Etnogenez məsələlərində isə arxeoloji, genetik və antropoloji istiqamətlər üzrə materiallar üzərində işlərin hər bir xalqın özü tərəfindən aparılması daha məqsədəuyğundur. Xalqımızın tarixini, onun mənşəyini təhrif etməyin qarşısını almaq üçün həmin tədqiqatların obyektiv elmi əsaslar üzərində aparılması zəruridir.

Hesab edirəm ki, antropologiyanın digər ümumi xarakter daşıyan sahələrindən fərqli olaraq, Azərbaycanda siyasi antropologiya sahəsində kifayət qədər ciddi işlər aparılmalıdır.

Azərbaycanda antropologiya istiqamətinin inkişaf etməsi üçün AMEA-nın institutları arasında birgə əməkdaşlıq mövcud olmalıdır. Bu istiqamətin yalnız AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda inkişaf etdirilməsini gözləmək doğru deyil. Bu işə Biologiya və Tibb Elmləri, Humanitar Elmlər bölmələri də cəlb edilməlidir. Antropologiyanın ciddi elmi əsaslar üzərində yaradılması üçün mütləq birgə araşdırmalar aparılmalıdır. Bu istiqamətdə AMEA prezidenti tərəfindən müvafiq tapşırıqlar verilib və bununla bağlı işlərə başlanılıb. Ümid edirəm ki, yaxın zamanda yeni fəlsəfə doktorluğu dissertasiyalarının müdafiəsi keçiriləcək, klassiklərin əsərləri tərcümə olunacaq və bu sahədə geniş tədqiqatlara yer ayrılacaq. İnanıram ki, antropologiya sahəsi Azərbaycan elminin inkişafına öz töhfəsini verəcək.

**Müsahibəni apardı:**
**Nərgiz QƏHRƏMANOVA,**
**AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin sektor müdiri, dissertant**

# Bu gün Azərbaycan Respublikasının Konstitusiya Günüdür




**Konstitusiyamızın qəbul edilməsindən 26 il ötür. Müstəqil Azərbaycanın ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib. Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minib.**

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır.

Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə, cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı.

1995-ci ilin mayında ulu öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası formalaşdırıldı. Komissiyanın hazırladığı bitkin, əhatəli Konstitusiya layihəsi 1995-ci ilin oktyabrında ümumxalq müzakirəsinə verildi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi və onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Əsas Qanun noyabrın 27-də hüquqi qüvvəyə mindi.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəddir.

Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. Ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. Konstitusiya qəbul edilən gün - noyabrın 12-də respublika parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

# Milli Dirçəliş Günü - xalqımızın istiqlal mücadiləsi

**Ötən əsrin axırlarında Sovet İttifaqının xalqlara, xüsusilə Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter aldı. Ermənilər Dağlıq Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başladı.**




Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.

Hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk gətirən ümummilli lider Heydər Əliyev sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli- mənəvi dəyərlərə, Azərbaycan elminin və mədəniyyətinin dirçəlişinə xüsusi önəm verdi. Bütün sahələrdə inkişaf və oyanış müşahidə olunmağa başladı. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində təhsil alan milli ruhlu alimlər və ziyalılar ordusu yetişdi. Dahi şəxsiyyət Heydər Əliyevin respublikada yaratdığı bu mənəvi-psixoloji və iqtisadi baza təxminən 20 il sonra Sovet İttifaqı dağılmağa başlayanda xalqın dayağı oldu.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Nəticədə 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

Bu gün ölkəmizin hər yerində qələbə ruhu hakimdir. İşğaldan azad olunmuş ərazilərdə son bir ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri yenidən bu yerlərə həyat verir, ermənilərin ekoloji sistemə vurduqları ziyan aradan qaldırılır. İşğaldan azad olunan ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Topxana meşəsini də əhatə edir.

Topxana meşəsi Şuşanın qədim tarixə malik nadir sərvətlərindəndir. 1988-ci ilin noyabrında başlanan ekoloji terror nəticəsində 30 ilə yaxın işğal müddətində Topxanada minlərlə qiymətli ağac kəsilərək məhv edilib. Bu həftə qədim Şuşanın Topxana meşəsini də əhatə edən ağacəkmə kampaniyası zamanı 3 hektar ərazidə dağdağan, göyrüc, saqqızağacı, qaraağac əkilib, əraziyə 100 kiloqram palıd toxumu səpilib.

# Milli Aerokosmik Agentliyi ilə İdarəetmə Sistemləri İnstitutu arasında memorandum imzalanıb

**Müdafiə Sənayesi Nazirliyi ilə AMEA arasında elmi-texniki əməkdaşlıq əlaqələri çərçivəsində Milli Aerokosmik Agentliyi ilə AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun nümayəndələri birgə görüş keçirilib.**



Görüş zamanı AR Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin baş direktoru Natiq Cavadov şəxsində və İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, akademik Əli Abbasov şəxsində elmi tədqiqatların aparılması və innovativ məhsulların yaradılması sahəsində birgə fəaliyyət barədə razılıq əldə olunub və memorandum imzalanıb.

Tərəflər ölkənin iqtisadi və müdafiə potensialının gücləndirilməsinə xidmət edən, innovativ texnologiyalar əsasında perspektiv məhsulların layihələndirilməsi, iqtisadi, sosial, ekoloji və müdafiə xarakterli tətbiqi tədqiqatların aparılması, müxtəlif xarakterli kompleks sistemlərin layihələndirilməsi, doktorant və dissertantların məşğulluq səviyyəsinin artırılması, kadr mübadiləsi və digər sahələr üzrə qarşılıqlı əməkdaşlıq edəcəklər.

# AMEA əməkdaşları şəhid ailələri və qazilərimizə dəstək olurlar



**AMEA-nın vitse-prezidentinin köməkçisi, yer elmləri üzrə fəlsəfə doktoru Rəqsanə Əsgərovanın təşkilatçılığı və təşəbbüsü, AMEA Rəyasət Heyətinin, Neft və Qaz İnstitutunun, Geologiya və Geofizika İnstitutunun bir qrup əməkdaşının və digər şəxslərin iştirakı ilə Azərbaycanın şanlı zəfəri ilə yekunlaşan Vətən müharibəsi şəhidlərimizin ailə üzvləri və qazilərimiz mütəmadi ziyarət olunur, onların sosial problemlərinin həlli istiqamətində addımlar atılır, müxtəlif yardımlar edilir.**

Belə ki, Vətən müharibəsinin başlamasından bu günə kimi Azərbaycanın bir çox bölgələrində şəhid ailələri və qazilərimizlə görüşlər keçirilib, onların şücaətini əks etdirən tədbirlər təşkil olunub, videoçarxlar hazırlanıb, həmçinin şəhidlərimizin və qazilərimizin övladları üçün əyləncəli tədbirlər həyata keçirilib.

Bundan əlavə, xəstəxana şəraitində də müalicə alan qazilərimiz ziyarət olunub, o cümlədən R.Əsgərovanın təşkilatçılığı ilə həm Vətən müharibəsi ərzində, həm də postmüharibə dövründə qanvermə aksiyalarında fəal iştirak edilib.

Qeyd edək ki, yer elmləri üzrə fəlsəfə doktoru Rəqsanə Əsgərova Vətən müharibəsi dövründə fəallıq göstərib, cəbhə bölgəsində əsgərlərimizi və yerli əhalini ziyarət edib, xeyriyyəçi insanların dəstəyi əsasında onlara mütəmadi müxtəlif növ yardımlar aparıb. O, İkinci Qarabağ müharibəsi ərzində döyüş bölgəsindəki hərbi qulluqçulara, şəhid və əsgər ailələrinə dəstək aksiyalarında fəal iştirakına görə bir çox Fəxri fərman və medallarla təltif olunub.

Onu da qeyd edək ki, gənc alimin vətənpərvər ruhda yetişməsi və fəaliyyəti onun ailəsindən irəli gəlir. Belə ki, babası Qurban Əsgərov Böyük Vətən müharibəsinin iştirakçısı olub, atası Əkbər Əsgərov isə Birinci Qarabağ müharibəsində yüksək şücaət göstərib və "Topçu Əkbər" ləqəbi ilə tanınıb. Qardaşı Taleh Əsgərov isə Vətən müharibəsinin iştirakçısı olub və Füzulidən Şuşaya qədər qəhrəmanlıqla dolu döyüş yolu keçib, bir sıra medallarla təltif edilib.

# Azad Həmkarlar İttifaqının 2021-ci ilin yekunlarına dair hesabat toplantısı

**Noyabrın 5-də AMEA-nın Əsas binasında Zəfər Gününə həsr edilmiş və Azad Həmkarlar İttifaqının (AHİ) 2021-ci ilin yekunlarına dair hesabat toplantısı keçirilib.**



Tədbirdə şəhid ailələri, qazilər, I və II Qarabağ müharibəsinin iştirakçıları, AMEA-nın elmi müəssisə və təşkilatlarının həmkarlar komitələrinin sədrləri iştirak ediblər.

Toplantıda AHİ-nin sədri, professor Habil Qurbanov rəhbərlik etdiyi qurumun 2021-ci ilə dair hesabat məruzəsini təqdim edib. O, Azərbaycanın Vətən müharibəsi zamanı möhtəşəm qələbə qazanması, uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, xalqımızın çoxəsrlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən danışıb.

Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi islahatların nəticəsində ölkədə il ərzində çoxsaylı iş yerlərinin açılması, aztəminatlı ailələrin sosial təminatının yaxşılaşdırılması istiqamətində müvafiq işlərin həyata keçirildiyini vurğulayan sədr AHİ-nin il ərzində gördüyü işləri diqqətə çatdırıb.

H.Qurbanov elmi fəaliyyətlə məşğul olan şəxslərin fəaliyyətinə dəstək vermək, onların əməyini qiymətləndirmək üçün lazımi işlərin görüldüyünü, maddi-sosial problemləri olan şəxslərə ittifaq tərəfindən yardımların göstərildiyini bildirib. O, AMEA işçilərinin mədəni-kütləvi tədbirlərdə iştirakının təmin olunması məqsədi ilə teatr və konsertlərə biletlərin verildiyini vurğulayıb. Məruzəçi AHİ-nin fəaliyyətindəki mövcud problemlər və onların həlli yollarından, perspektivdə görüləcək işlərdən də danışıb.

Həmçinin Azad Həmkarlar İttifaqı və ilk təşkilatlar tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna, "YAŞAT" Fonduna, Qarabağ Dirçəliş Fonduna ianələrin köçürüldüyünü, şəhid ailələri və qazilərimizlə görüşlərin təşkil olunduğunu, onlara yardımların edildiyini, o cümlədən bir sıra tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

H.Qurbanov ittifaq tərəfindən pandemiya dövründə də aztəminatlı ailələrə yardımların edildiyini, əməkdaşların vaksinasiyasının təşkilinin həyata keçirildiyini, AMEA-nın Əsas binasında dezinfeksiya işlərinin icra olunduğunu söyləyib.

Sonda Vətən müharibəsində iştirak edən, şəhid ailəsi, zabit və qazilərə və "İlin peşəkar gəncləri"nə Fəxri diplomlar və mükafatlar təqdim olunub.

**Münaqişə bitib və yenidənqurma başlayıb.**

*Azərbaycan Prezidenti İlham Əliyev*

*(VIII Qlobal Bakı Forumunda çıxışından)*

**XXI əsr Azərbaycanı öz inkişafının ən yeni mərhələsinə - bütün sahələri əhatə edən çoxistiqamətli və dayanıqlı islahatlar yoluna qədəm qoydu. "Tərəqqi, təkamül və yeni şəraitə uyğunlaşma" paradiqmalı islahatlar xətti bütün sahələri əhatə edən çoxşaxəli və dinamikdir. Bu məhz daxili ictimai-siyasi sabitlik, iqtisadi uğurların şərti olub, ölkədə milli inkişaf xəttinin təminidir. Qeyd edək ki, xalq-hakimiyyət, dövlət-ordu birliyi hər dövlətdə ictimai-siyasi sabitliyin və təhlükəsizlik amilinin əsas şərtidir. Bu şərtdə siyasi-hərbi-iqtisadi məsələlərlə yanaşı insan sağlamlığı amili də təhlükəsizlik kontekstidir. Bu birlikdə də vacib olan xalqın önündə gedən güclü, iradəli Lider və dövlətin xalqına qayğısı da önəmli faktordur.**

Prezident İlham Əliyev siyasətində xalqın rifahı, sosial həyatı Azərbaycanın milli maraqları və mənafeyindən irəli gələn dövlət proqramları ilə, çoxmədəniyyətli, çoxmillətli və çoxkonfessiyalı balanslı strategiya əsasında həyata keçirilir. Bu balanslı siyasət ölkədə ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, sosial-mədəni tərəqqi, güclü və müasir ordu quruculuğunda öz təsdiqini əks etdirir. Prezident İlham Əliyevin həllinə start verdiyi çoxmiqyaslı və hərtərəfli islahatlar xətti sayəsində Azərbaycan strateji modern ölkəyə çevrilmişdir. Modern, dayanıqlı inkişaf, demokratik və hüquqi dövlət kursu Azərbaycanın strateji yoludur.

Prezident İlham Əliyev pandemiya dövründə hər bir vətəndaşın sağlamlığı, əhalinin sosial müdafiəsinin təminatı, paralel olaraq həm də iqtisadi aktivliyini həyata keçirilməsiistiqamətində silsiləli kompleks tədbirləri reallaşdırırdı. Pandemiyadan zərər görənözəl sektorsahəsinə, xırda və orta sahibkarlara da maliyyə dəstəyi verildi. Xüsusən də, işləməyən, yeni işsiz və iş yeri müvəqqətiqapananlara da 190 manat birdəfəlik ödəniş verildi. Bu göstərici, Prezident İlham Əliyev siyasətinin əsasında Azərbaycan vətəndaşının sağlamlığı və onun sosial rifahının durması paradımasıdır.

# Qlobal Bakı Forumu:

# Qlobal COVID-19 və qlobal münaqişələrdə qaliblik Yolu Birlik + Sülhdür

Prezident İlham Əliyev hadisə və prosesləri öncəgörən, praqmatik, prinsipial və strateji qətiyyətli baxış tərzi olan, ardıcıl və sistemli qərar qəbuletmə bacarıqlı və siyasi iradəli liderdir. Bu reallıq bütün dünyanı sarsıdan COVID-19 pandemiyasına qarşı mübarizədə və eləcə də Vətən müharibəsində də özünü büruzə etdi.

Prezident İlham Əliyevin COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsi, dünyada birlik, həmrəylik və məsuliyyətin gücləndirilməsinə hədəflənmiş təşəbbüsləri dünya ictimaiyyəti tərəfindən birmənalı dəstəkləndi. Bu göstərdi ki, Azərbaycan dövləti və onun lideri İlham Əliyev qlobal baxışlı modern liderdir.

COVID-19 pandemiyası "Əsrin görünməz soyuq müharibəsi"dir. Beynəlxalq ictimaiyyət də gördü ki, pandemiyaya qarşı qlobal mübarizənin aparılması və dünyada ümumi səyləri birləşdirmə çağırışına səsləyən dövlət Azərbaycan Respublikası, lideri də qlobal düşüncəli Prezident İlham Əliyev olmuşdur. Pandemiyaya qarşı dünya dövlətlərinin iqtisadi, sosial, humanitar,əsasən də tibbi-səhiyyə sahələrində qarşılıqlı əməkdaşlığında bu səylər də Azərbaycanın yeni hədəfləridir. Bu aspektdən də dünyanın gözlədiyi COVID-19 əleyhinə peyvəndin meydana gəlməsi də strateji və aktual problem idi. Həmçinin belə peyvəndlərin hər bir dünya ölkəsinə əlçatanlığının təmini də vacib məsələlərdən idi. Bu həqiqətdə isə dövlətlərin faciəvi Pandemiya zamanı, hətta bir-birinə qarşı geosiyasi iddialardan əl götürməməsi, "əlinə bəhanə düşmüş" kimi sərhədlərin qapadılmasından belə bəzi iqtisadi təzyiq elementi olaraq istifadəsi də real gerçəkliklərdir. Məhz bu kimi aktual problemlər də Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il dekabrın 3-də reallaşdırılan BMT Baş Məclisinin xüsusi sessiyasının gündəliyini müəyyənləşdirdi. Ümumi bəla olan pandemiya ilə mübarizədə dövlət başçısının qətiyyəti, tələbkarlığı, peşəkarlığı, onun humanizminin, xeyirxahlığının, Azərbaycan vətəndaşlarının pulsuz vaksinasiya edilməsi nümunəsi də xalqına xidmət, insanlara qayğısının bariz göstəricisidir.

Ölkədə COVID-19 pandemiyasına qarşı dörd istiqamətdə mübarizə aparıldı: 1) vətəndaşların həyatı və sağlamlığının qorunması; 2) əhalinin sosial müdafiəsinin təminatı; 3) iqtisadiyyatın inkişaf etdirilməsində müəyyənləşən strategiya; 4) Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri əsasında Azərbaycan da bu pandemiya bəlasından yaranan çətinlikləri minimuma endirmə yolunu tutan dövlətlərdəndir. Bu reallıq Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də dəfələrlə qeyd olunmuş və Azərbaycanın pandemiyaya qarşı mübarizə tədbirləri bir çox ölkələrdə "Azərbaycan modeli" olaraq öyrənilmişdir. Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin aprelində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, 2020-ci ilin mayında Qoşulmama Hərəkatına üzv dövlətlərin Təmas qrupunun videoonlayn Zirvə görüşləri keçirildi. Bu isə regional və qlobal kontekstdə pandemiyaya qarşı qüvvələrin birləşdirilməsi və təcrübə mübadiləsi aparılmasını əks etdirirdi. Dövlət rəhbəri qlobal COVID-19 pandemiyasına qarşı beynəlxalq səviyyədə səylərin birləşdirilməsi və gücləndirilməsinə yönəlik - BMT Baş Məclisinin xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürdü. Bu təklif 2020-ci il mayda Nyu-Yorkda Qoşulmama Hərəkatının Koordinasiya Bürosunda müzakirə edildi, dəstəkləndi və Qoşulmama Hərəkatı adından BMT Baş katibinə müraciət qəbul edildi. Həmçinin Prezident İlham Əliyev 2020-ci il mayın 13-də Qoşulmama Hərəkatının sədri kimi BMT Baş katibinə də müraciət etmişdi. BMT Baş katibi təşkilatının Nizamnaməsinin 20-ci maddəsinə əsasən 2020-ci il mayın 28-də BMT Baş Məclisinin xüsusi sessiyasının çağırılması üçün üzv dövlətlərə müraciət etmişdi.

Nəzərə yetirək ki, BMT Nizamnaməsinin 20-ci maddəsinə görə üç məqsədlə təşkilatın Baş Məclisinin xüsusi sessiyasını keçirmək olar. Birinci, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri bunu tələb etsin, ikinci, BMT Baş Məclisinin əksəriyyət üzvləri belə tələbi təsdiq etsin və üçüncü, BMT-nin üzvü olan hər hansı bir dövlətin təklifi üzv dövlətlər tərəfindən müdafiə olunduqda xüsusi sessiyanı çağırmaq olar. Prezident İlham Əliyevin bu təklifinə BMT Baş Məclisinin 130-dan çox üzvü tərəfdar çıxmışdı. Bu dövlətlər arasında Qoşulmama Hərəkatının 120 üzvü ilə birgə, Avropa İttifaqının, Asiyanın, Afrikanın və Latın Amerikasının da aparıcı dövlətləri yer alırdı. Bu təklifə qarşı çıxış edən tək dövlət işğalçı Ermənistan olmuşdu. Faşizmi və terrorizmi dövlət siyasətinə çevirən bir "təkmillətli dövlət"in belə hərəkəti onun yenə əsl mahiyyətinin göstəricisi oldu. Bu mənada, Ermənistan dünyada tək ölkədir ki, COVID-19-la mübarizə təklifinə qoşulmadı və sanki "pandemiyanın müttəfiqi" kimi çıxış etdi. Bu nəzərdən Ermənistanın belə anti-bəşəri davranışına post-pandemiya dövründə siyasi və beynəlxalq hüquqi qiymət verilməsi də zəruri məsələdir.

4 noyabr 2021-ci il tarixində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən ənənəvi VIII Qlobal Bakı Forumu da məhz "COVID-19-dan sonrakı dünya" mövzusunda idi. VIII Qlobal Bakı Forumunda COVID-19-dan sonra dünya nizamı və yeni dövrdə yeni dünya iqtisadiyyatı, sülh, təhlükəsizlik, insan hüquqları, iqlim dəyişikliyi, enerji təhlükəsizliyi, tibb və insanların peyvənd olunması, qida təhlükəsizliyi, Gənclər və uşaqlar, Şərq Tərəfdaşlığı, Avropa İttifaqı, Balkanlar və Cənubi Qafqazdakı real vəziyyətə aid məsələlər müzakirə obyekti oldu.

Yada salaq ki, 7-8 may 2013-cü ildə ilk dəfə Qlobal Bakı Forumu keçirilərək də qlobal, aktual mövzular müzakirə edilmişdi. Birinci Bakı Forumunda regional proseslər, Qarabağ məsələsi,qadın-ailə problemləri dinlərarası, mədəniyyətlərarası dialoq və münaqişə ocaqları ilə bağlı vəziyyət müzakirəyə çıxarılmışdı. 2014-cü il 28-30 aprel II Qlobal Açıq Cəmiyyətlər Forumunda davamlı inkişafın təmini,açıq cəmiyyətlərin əhatə dairəsinin əsasları, iqtisadi dayaqları, mürəkkəb şəraitdə münaqişələrin həlli, multiidarəetmə və institusional məsələlər müzakirə olunmuşdu.Hər ildə bir dəfə keçirilən belə mötəbər tədbirlərdə etnik və s. tipli münaqişələr, terrorlar, demokratiyanın inkişafı, təhsil, ekologiya, enerji təhlükəsizliyi, dinlərarası dialoq, sülhprosesində qadınların rolu, münaqişələrin yatırılmasında dinlərarası dialoq məsələsi, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, qlobal təhlükəsizliyin təmini radikallaşma və miqrasiya mövzularında aparılan müzakirələr məhz bu forumların beynəlxalq miqyasda tanınmasında və fikir mübadiləsi üçün vacib platforma olduğunu təsdiq etmişdir. Prezident İlham Əliyevin söylədiyi kimi: "Qlobal Bakı Forumu qlobal siyasətə aid təxirə salınmaz və vacib məsələlərin müzakirəsi baxımından aparıcı platformalardan birinə çevrilib".

Bu mənada VIII Qlobal Bakı Forumu regionda və dünyadakı dəyişikliklərə operativ yanaşması ilə yenidən aktual platforma oldu. Roma Papası Fransiskin xüsusi müraciətində: "Bu mühüm tədbir Beynəlxalq Birlik rəmzidir" deyərək dəyərləndiribdir.

VIII Qlobal Bakı Forumu Azərbaycanın qlobal dünyadakı yerinin böyük əhəmiyyət daşıdığını göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin apardığı strateji-humanitar siyasi xətti həm regionda, həm də qlobal məsələlərdə Azərbaycanın mühüm maraqlarının müdafiəsi ilə bərabər, eləcə də dünya məsələlərinin həllində onu müstəqil dövlət kimi tanıdır.

Bu aspektdən postmüharibə dövründə Cənubi Qafqazda yaranan yeni reallıq Azərbaycan dövlətinin güc və diplomatik bacarıqlarını əks etdirir. Cənubi Qafqazda yeni reallıqlar qlobal miqyasda təhlil olunur. Regionda əməkdaşlıq və inkişafda yeni zəmin formalaşdırılır. Azərbaycanın BMT-dən sonra ikinci ən böyük qurum olan Qoşulmama Hərəkatına rəhbərliyi də qlobal ölçüdə ölkəyə maraq və diqqətin artmasına səbəb yaradır. Bu nöqteyi nəzərdən də:

1) Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizədə dünyaya təqdim etdiyi "Azərbaycan modeli" pozitiv nümunədir. Belə ki, çox az vaxtda ölkədə tibbi infrastruktur pandemiya ilə mübarizəyə uyğunlaşdırılıb. 2) Pandemiya nəzarətə götürülüb, qısa və uzunmüddətli qapanmalar virusun yayılmasının qarşısını alıb. 3) Həssas əhali təbəqəsinə sosial yardım paketləri paylanılıb, dövlət dəstəyi həyata keçirilib. 4) Ölkədə vaksinasiya aparılıbdır. 5) Azərbaycanda Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri əsasında, vaksin, maska və s. aksiyalar həyata keçirilibdir. 6) Azərbaycan "vaksin millətçiliyinə qarşı" mübarizə aparan dövlətdir. 7) Azərbaycan Vətən müharibəsində təsdiq etdi ki, BMT qətnamələrini özü həll etdiyi kimi, COVID-19 "soyuq müharibəsinə" qarşıda mübarizədə qalibdir. Bu qaliblik dövlət+xalq vəhdətindən irəli gəlir..



Prezident İlham Əliyevin qlobal təşəbbüslərlə çıxışları postpandemiya dövrünün dünyada baş verən dəyişikliklərin müzakirəsinə, bu yolda Birgə səylərin müəyyənləşdirilməsində ortaq nöqtə olur. BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya dediyi kimi: "Planeti narahat edən əsas məsələlərdən vacibi də "COVID-19 -un dünyadakı sosial bərabərsizliyi daha qabarıq üzə çıxartdı" məsələsidir.

Qlobal dialoq və müzakirələr diyarı Azərbaycan, onun mərkəzi Bakıda keçirilən səkkizinci Qlobal Bakı Forumu qlobal miqyasda Pandemiya dövründə dünyada keçirilən ilk qlobal tədbirlərdən biridir.

Pandemiya, postCOVID-19 dövrü və sonrasında vacib olan tədbirlərdən, geoiqtisadi, geosiyasi problemlər, sülh, barış, təhlükəsizlik, insan hüquqları, iqlim dəyişiklikləri və enerji təchizatı,səhiyyə və qida təhlükəsizliyi ilə bağlı müzakirələr Azərbaycanın da üzərinə mühüm öhdəliklər aldığını göstərir.Belə mötəbər Qlobal platformaya ev sahibliyi etmək böyük əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin balanslı xarici siyasəti, dünyanın aktual məsələlərinə dair fikirləri, Qlobal çağırışlara çevik reaksiyası və beynəlxalq dünyada lider olaraq qazandığı etibarlı etimad Azərbaycan dövlətin də diskussiya və dialoqlar üçün vacib platformaya çevrilməsində mühüm rola malik olduğunu əks etdirir. Azərbaycanın etibarlı tərəfdaş olaraq beynəlxalq müstəvidə rolu, beynəlxalq hüquq və prinsiplərə qanunlara müvafiq olaraq riayət etməsi onun mövqeyini də gücləndirir.

Azərbaycan COVID-19 dövründə "peyvənd millətçiliyinə" qarşı mübarizə edən ilk ölkələrdən biridir. Məhz bu gərgin mübarizə Bakının "COVID-19-dan sonrakı dünya" mövzusunda Qlobal Bakı Forumuna ev sahibliyi etməsinə haqq verib. Çünki Azərbaycanın ortaya qoyduğu təşəbbüslər və eləcə də 2020-ci il Vətən müharibəsində öz tarixi Qarabağ torpaqlarını azad etməsi haqq-ədalət uğrunda qətiyyətli mübarizəsi bütün dünya tərəfindən qəbul edilib və təqdir edilib.

Beynəlxalq birlik Azərbaycan liderinin və dövlətinin pandemiya dövründə dünya üçün gördüyü işlərədə yüksək qiymət verir. Azərbaycan dövlətinin geosiyasi, geoiqtisadi platformalarda qazandığı yüksək etimad, etibarlı tərəfdaş kimi dünya ölkələrinin rəğbətini qazanması, həmçinin hər zaman ləyaqətli davranışı bu qiymətin əsasında dayanan komponentlərdir.

Bütün dünyanın diqqətinin yönəldiyi VIII Qlobal Bakı Forumu Azərbaycanın artan beynəlxalq nüfuzu, beynəlxalq məsələlərin tənzimlənməsində tutduğu yeri və rolunu təcəssüm etdirir. Azərbaycan Respublikası bu gün sözügedən istiqamətlərdə sadəcə müşahidəçi kimi çıxış etmir, irəli sürülən təşəbbüslər və müzakirə edilən problemlərin həllinin birbaşa iştirakçısı və öncüllərindən birinə çevrilmişdir.

Beynəlxalq müstəvidə qazanılan yüksək etimad isə heç də təsadüfi xarakter daşımır. Azərbaycan dövləti, onun lideri, Prezident İlham Əliyev həm region üçün, həm də ümumilikdə bəşəriyyəti maraqlandıran problemlərin həllində təşəbbüslərlə çıxış edən modern dövlətə dəstək verən tərəfdaşdır. Azərbaycan Prezidenti İlham Əliyev istənilən beynəlxalq tribunadan çıxışı zamanı həm regional məsələlərə, həm də müasir dövrün çağırışlarına dair paradiqmal və konseptual hədəfləri bəyan edir. Azərbaycan Prezidentinin uzaqgörən strategiyası və qətiyyətli siyasi iradəsi dövlətin beynəlxalq dünyada tamhüquqlu iştirakçı kimi mövqe tutmasına əsas yaradır.

Bakı Qlobal Forumları isə Azərbaycanı dünya tribunasına çevirməkdədir. 2013-cü ildən bu yana Azərbaycan sözügedən Forumlar vasitəsilə qlobal miqyasda diqqət tələb edən məsələləri müzakirə obyektinə çevirir və həll yollarına da dialoq, birlik kontekstində nəzər yetirir. Dünya dövlətləri isə bu Forumlara yüksək diqqət ayırmaqla,həm də Bakının Cənubi Qafqazda liderlik keyfiyyətlərini qəbul etdiyini göstərir. Forumda tanınmış ekspertlər, yüksək qonaqlar və dövlət xadimləri Azərbaycanın nəzər yetirdiyi mövzuların mühüm olduğunu, onların həllinin vacibliyini qeyd edirlər. Bu mənada VIII Bakı Qlobal Forumda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferovic vurğuladı ki: "COVID-19 hamıdan ümumi səylərin göstərilməsini tələb edir. Çünki bu böhran təkbaşına aradan qaldırıla bilməz" və yaxud Latviya Prezidenti Eqlis Levis videomüraciətində bildirdi ki: "Dünyanın hazırki vəziyyəti dəqiq nizam-intizam və qlobal səfərbərlik tələb edir".

Bu gün dünyada baş verən hadisələrə sərrast yanaşma, uyğun tədbirlərin görülməsi zamanı çeviklik nümayiş etdirilməsi, ortaq məsələlərin həllində fikirlərin dialoq çərçivəsində aparılması, müxtəlif baxışların müzakirəsi-Bakının ev sahibliyi etdiyi forumda da mühüm rol oynaması şərtidir. Belə ki, Böyük Britaniyanın Baş Naziri Boris Conson Foruma ünvanladığı müraciətdə deyir: "Birləşmiş Krallıq Qafqaz regionunda sülh və sabitliyi postmünaqişə dövrünün problemlərinin həllini dəstəkləməyə davam edir".

Azərbaycan dövlətinin belə samballı və səviyyəli beynəlxalq tədbirlərə rəhbərlik etməsi, qlobal miqyasda həmrəylik yaratmaq səyləri, Azərbaycanın dünyanın perspektivi ilə əlaqədar həssas diqqətinin nümunəsidir. Qlobal Bakı Forumu Azərbaycanın dünyada artan nüfuzu və bu yolda beynəlxalq dəstəyinin artması gerçəkliyidir.

Fikrimi Prezident İlham Əliyev tərəfindən Azərbaycanda 2021-ci ilin "Nizami ili" elan edilməsi kontekstində dahi Nizaminin fikri ilə bitirirəm:

*"Bir olsa yoldaşın, dostun əməli*
*Daşdan su çıxardar onların əli.*
*Nifaq olan yerdə, fəlakət də var,*
*Səadət günəşi birlikdən doğar."*

**Rəna MİRZƏZADƏ**
**professor**

# AMEA hökumətlərarası iqtisadi əməkdaşlığa dair tədbirdə təmsil olunub



**Xorvatiyanın Zaqreb şəhərində Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 2-ci iclası keçirilib.**

Birgə Komissiyaya Azərbaycan tərəfindən Mədəniyyət naziri Anar Kərimov, Xorvatiya tərəfindən İqtisadiyyat və davamlı inkişaf naziri Tomislav Coric həmsədrlik edib. Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Energetika Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Xorvatiyadakı səfirliyi, Ələt Azad İqtisadi Zonası, Dövlət Neft Şirkəti, Azərbaycan Milli Elmlər Akademiyası, Qida Təhlükəsizliyi Agentliyi və Turizm Agentliyinin rəsmiləri daxil edilib. Tədbirdə AMEA-nı Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri, dosent Esmira Əlirzayeva təmsil edib.

İclasda çıxış edən E.Əlirzayeva iqtisadiyyatın inkişafında elmin əhəmiyyətli rol oynadığını və elmi əsaslara söykənən istehsal sahələrinin dayanıqlılığını diqqətə çatdırıb. O, Azərbaycan və Xorvatiyanın elmi qurumları arasında hər iki ölkə üçün prioritet sahələr istiqamətində əməkdaşlığın genişləndirilməsi üzrə AMEA-nın təkliflərini səsləndirib. Enerji səmərəliliyi və təhlükəsizliyi, bərpa olunan enerji, bioiqtisadiyyat, qida təhlükəsizliyi və texnologiyası, iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması, dəniz tədqiqatları və sağlam sular, biotibb, farmakologiya, kompüter elmləri, rəqəmsal texnologiya və proqram təminatının inkişafı, kvant informatikası, nanotexnologiya, Mini-Fab, astrofizika, geodinamika, neft və qaz iqtisadiyyatı, folklor, arxeologiya, antropologiya kimi sahələr üzrə müştərək proqram və layihələrin hazırlanmasının əhəmiyyəti qeyd edilib. E.Əlirzayeva vurğulayıb ki, 30 il ərzində işğal altında qalmış qədim Azərbaycan ərazilərində ətraf mühitin, su hövzələrinin çirklənməsi, biomüxtəliflik və təbii sərvətlərə dəyən zərər alimlərin bu sahələrə xüsusi diqqət ayırmasını tələb edir. O, bildirib ki, qeyd edilən elmi istiqamətlər yeni elan edilmiş "Horizon Avropa" proqramının prioritetləri ilə uzlaşır və 2 ölkə alimləri bu proqramın imkanlarından birgə istifadə edə bilər.

İclasın sonunda Komissiyanın həmsədrləri A.Kərimov və T.Coric tərəfindən iqtisadi, sənaye, enerji, nəqliyyat, İKT, elm və təhsil, mədəniyyət, turizm, gənclər və idman, səhiyyə, kənd təsərrüfatı, qida təhlükəsizliyi və digər sahələrdə əməkdaşlıq imkanlarını əks etdirən Protokol imzalanıb.

# Azərbaycanlı alim beynəlxalq konfransda "Heydər Əliyev siyasi kursunun təntənəsi: Böyük inamın təsdiqi" adlı məruzə ilə çıxış edib



**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Multikulturalizm və Tolerantlıq fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru Xatirə Quliyeva 22-24 oktyabr tarixində ECLSS org.kontrans təşkilatının Təhsil və Sosial Tədqiqatlar üzrə Beynəlxalq Avrasiya Konfransında (IECES 2021) "Heydər Əliyev siyasi kursunun təntənəsi: Böyük inamın təsdiqi" (Of Treumph of Heydar Aliyev Political Course: Confirmation Of Great Faith" https://eclss.org/publicationsfordoi/) adlı məruzə ilə çıxış edib.**

Alimin məruzə üzrə təqdim etdiyi geniş məqalə ECLSS beynəlxalq indeksli jurnala çapa qəbul olunub.

Məruzədə Azərbaycanın 27 il erməni işğalı altında olan torpaqlarının 27 sentyabr 2020-ci ildən 8 noyabra kimi Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Müzəffər Azərbaycan Ordusunun qəhrəmanlıq mübarizəsi ilə azad olunmasından, bu zəfərin tarixi yolundan, ulu öndər Heydər Əliyevin Dağlıq Qarabağ probleminin həlli üçün böyük səylərindən bəhs olunub.

# Əlyazmalar İnstitutunun alimləri Daşkənddə Nizamiyə həsr olunmuş beynəlxalq elmi konfransda

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və həmin institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfzadə Daşkənd Dövlət Şərqşünaslıq Universitetində təşkil olunan "Ruhi-mənəvi körpülər: Nizamidən Nəvaiyə" mövzusunda beynəlxalq elmi-praktiki konfransda iştirak ediblər.**



Əvvəlcə akademik Teymur Kərimli universitetin rektoru, filologiya elmləri namizədi, dosent Gülçöhrə Rixsiyeva ilə görüşüb. Akademik rəhbərlik etdiyi institutun Özbəkistanda fəaliyyət göstərən elmi-tədqiqat və ali təhsil müəssisələri ilə əməkdaşlıq ənənələri haqqında rektora məlumat verib. Sonra hər iki təşkilatın rəhbəri gələcək əməkdaşlıq perspektivləri haqqında müzakirə aparıblar. Görüşdə Əlyazmalar İnstitutunda Nizamişünaslıq sahəsində aparılan elmi araşdırmaların yekunu olan ən yeni kitablardan bir neçəsi Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin kitabxanasına hədiyyə edilib.

Daha sonra akademik Teymur Kərimli konfransın plenar iclasında "Nizami demokratizmi dünya ədəbiyyatında keyfiyyətcə yeni hadisədir" mövzusunda, dosent Əzizağa Nəcəfzadə isə bölmə iclasında "Klassik İslam Şərqi ədəbiyyatında insanpərvərlik ənənəsi: Nizami və Nəvai yaradıcılığı kontekstində" mövzusunda məruzə ediblər.

Qeyd edək ki, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun Avrasiya Regional Mərkəzi tərəfindən təşkil olunub.

# Rusiyalı alimlər Daşgil vulkanının yerləşdiyi əraziyə səfər ediblər

**AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu və Rusiyanın ən böyük təbii qaz istehsalçısı olan "Novatek" şirkətinin əməkdaşları və gənc alimlərinin, eləcə də Moskva Neft-Qaz Biznesi İnstitutunun rektoru Rüstəm Şaqiyevin birgə iştirakı əsasında Azərbaycanda neft-qaz sənayesinin müasir vəziyyəti və inkişaf perspektivləri, eləcə də nadir təbiət möcüzəsi olan palçıq vulkanları ilə əlaqədar görüş-seminar keçirilib.**

İnstitutun baş direktoru, coğrafiya elmləri doktoru Zakir Eminov qonaqları salamlayaraq, tədbirin təşəbbüskarı R.Şaqiyevi və müəssisənin gənc mütəxəssislərini iclas iştirakçılarına təqdim edib. Sonra Z.Eminov neftin Azərbaycan iqtisadiyyatındakı rolu haqqında geniş təqdimatla çıxış edib, seminar iştirakçılarının suallarını cavablandırıb.

R.Şaqiyev isə öz növbəsində Azərbaycanın neft istehsalı sahəsində böyük təcrübəyə malik inkişaf etmiş qabaqcıl ölkə olduğunu qeyd edib, azərbaycanlı neftçilərin uğurlarını yüksək qiymətləndirib və rusiyalı alimlərin elmi fəaliyyətini əks etdirən kitabları Z.Eminova təqdim edib.

Daha sonra qonaqlar institut əməkdaşları - coğrafiya üzrə fəlsəfə doktorları, dosentlər Elina Kərimova, Sitarə Tarixazər, İrina Kuçinskaya, Samirə Ələkbərova və c.ü.f.d Sevinc Məmiyevanın iştirakı ilə Qobustan rayonunda yerləşən Daşgil vulkanının yerləşdiyi əraziyə səfər ediblər. Azərbaycanlı alimlər qonaqları yerli vulkanlarla tanış edərək, onları maraqlandıran suallara cavablar veriblər. Vulkanlar üzrə mütəxəssis E.Kərimova seminarın davamı olaraq təqdimatla çıxış edib.

Səfərdən məmnun qalan qonaqlar azərbaycanlı mütəxəssislərə təşəkkürlərini bildiriblər.

# Fiziologiya İnstitutu ilə Kütahya Dumlupınar Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

**AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu Kütahya Dumlupınar Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb.**



Kütahya Dumlupınar Universitetinin rektoru, professor Dr. Kazım Uysal və universitetin prorektoru, professor Atilla Baturdan ibarət nümayəndə heyəti Azərbaycana səfərləri zamanı akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda olub və birgə əməkdaşlıq protokolları imzalayıblar.

Nümayəndə heyəti institutun baş direktoru, professor Ulduz Həşimova ilə görüşüb. Görüş zamanı institutun tarixi və fəaliyyəti haqqında məlumat verilib. Bildirilib ki, son illər Fiziologiya İnstitutunda görülən işlər təhsilin beynəlxalq standartlara uyğunlaşdırılmasına xidmət edir. Eyni zamanda Kütahya Dumlupınar Universiteti və Fiziologiya İnstitutu ilə əməkdaşlıq perspektivləri, biotibb sahəsində aparılacaq elmi tədqiqat işləri də müzakirə edilib.

Çıxış edən qonaqlar qeyd edib ki, bu müqavilə elmi tədqiqatlar və araşdırmalar sahəsində birgə fəaliyyəti nəzərdə tutur. Müqaviləyə əsasən hər iki tərəf birgə beynəlxalq konfrans və simpoziumlar təşkil edə, elmi fəaliyyətin yekunu olaraq elmi toplu və məcmuələr nəşr edə biləcək.

# Azərbaycan Avropa Şurasının Bioetika Komitəsinin iclasında

**Avropa Şurasının Bioetika Komitəsinin (DH-BIO) plenar iclası keçirilib. İclasda Azərbaycanı AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Proteomiks beynəlxalq laboratoriyasının müdiri, b.ü.f.d. İsmayil Zülfüqarov təmsil edib.**

İclasda psixi sağlamlıq müəssisələrində könüllü tədbirlərin təşviqinə yönəlmiş müsbət təcrübə nümunələrinin toplanılması, psixi sağlamlıq müəssisələrinə məcburi yerləşdirmə və məcburi müalicə ilə bağlı şəxslərin insan hüquqlarının və ləyaqətinin qorunmasına dair Əlavə Protokol, sağlamlıq savadlılığı, genom redaktə texnologiyaları, öz sağlamlıqları ilə bağlı məsələlərə dair qərarların qəbulunda uşaqların iştirakı, aztapılan səhiyyə resurslarına ədalətli çıxış, süni intellekt, genomik tibb üzrə dialoqun təşviqi, büroya seçkilər və bir sıra digər təşkilati məsələlər istiqamətində müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.

# Azərbaycanlı alimlər beynəlxalq tədbirdə

**Rusiya Federasiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun, M.Lomonosov adına Moskva Dövlət Universitetinin, Novosibirsk Dövlət Universitetinin və Paleosentralasia Elmi Tədqiqat Mərkəzinin dəstəyi ilə onlayn formatda "Xəzəryanı ərazilərdə istehsal təsərrüfatına keçid" adlı beynəlxalq elmi seminar keçirilib.**



Rusiya, İran, Almaniya, İngiltərə, Çernoqoriya, Xorvatiya və Yaponiyanı təmsil edən tədqiqatçılar Xəzərətrafı regionların paleolit, mezolit və neolit abidələrində aparılmış arxeoloji, palinoloji, paleobotanik, arxeogenetik və digər sahələr üzrə tədqiqatların nəticələri barədə çıxış ediblər. Beynəlxalq elmi seminarda Azərbaycanı AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev, İçərişəhər Muzey Mərkəzinin direktor müavini, tarix üzrə fəlsəfə doktoru Məlahət Fərəcova təmsil ediblər.

"Orta Kür çayının hövzəsində neolitləşmə prosesləri" mövzusunda çıxış edən t.ü.f.d. Fərhad Quliyev multidisiplinar tədqiqatların nəticələri əsasında neolit dövrünə aid Şomutəpə arxeoloji mədəniyyətini daşıyan qədim əhalinin məskənlərinin quruluşu, yayılma prosesinin qanunauyğunluqları, təsərrüfat və qidalanma sistemi, dini-ideoloji baxışları barədə məruzə edib.

"Xəzər dənizinin qərb sahilinin mezolit mədəniyyəti. Qobustan" adlı məruzəsində t.ü.f.d. Məlahət Fərəcova Qobustan ərazisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində ərazidəki mezolit dövrü abidələri, o cümlədən son tədqiqatlar nəticəsində aşkar edilmiş yeni petroqliflər (qayaüstü rəsmlər) barədə elmi tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə iştirak edən Kanaqava Perspektivli Tədqiqatlar Universitetinin (Yaponiya) əməkdaşı, doktor Sayci Aray "Cənubi Qafqazda maldarlığın başlanğıcı: Qərbi Azərbaycandan yeni məlumatlar" adlı məruzəsində COVID-19 pandemiyasına qədər Azərbaycan Respublikasının Qazax, Ağstafa və Tovuz rayonlarında azərbaycanlı alimlərlə birgə aparılmış arxeoloji və paleozooloji tədqiqatlar, həmçinin Aveydağ Dövlət Tarix Mədəniyyət Qoruğuna daxil Damcılı mağarasındakı arxeoloji qazıntıların nəticələri barədə geniş məlumat verib.

# "Vətən müharibəsində Azərbaycan qadını" mövzusunda konfrans keçirilib

**AMEA-nın Gəncə Bölməsində Vətən müharibəsində şanlı qələbəmizin ildönümünə həsr edilmiş "Vətən müharibəsində Azərbaycan qadını" mövzusunda konfrans keçirilib.**



Tədbirdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yığıncağı giriş sözü ilə açan Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev konfrans iştirakçılarını 44 günlük Vətən müharibəsində qazanılmış şanlı qələbə münasibətilə təbrik edib, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan qələbədə qadınların da iştirakını xüsusi vurğulayıb. Akademik qeyd edib ki, bu zəfər yürüşündə oğullarını xeyir-dua ilə cəbhəyə yola salan analar Azərbaycan qadınının məğrurluq göstəricisidir. Qarabağ uğrunda canından keçən şəhidlərimizi və Vətən uğrunda qəhrəmancasına vuruşan qazilərimizi dünyaya gətirən, onlara vətənpərvərlik ruhunu, vətən sevgisini aşılayan, düzgün tərbiyə edən məhz Azərbaycan qadınıdır.

Bölmənin Qadınlar təşkilatının sədri Mətanət Əliyeva "Azərbaycan qadını və dövlətçilik" adlı məruzəsində Azərbaycan qadınlarının tarix boyu torpaqlarımızın toxunulmazlığı, doğma el-obanın əmin-amanlığı uğrunda kişilərlə bərabər mübarizə aparması, hünər, cəsarət, vətənpərvərlik, müdriklik nümunələri göstərməsindən danışıb.

Konfransda Mehriban Məmmədovanın "Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva müasir Azərbaycan qadınının parlaq təcəssümüdür", Vüsalə Hüseynovanın "Tarixdə Azərbaycan qadınının rolu", Leyla Kərimovanın "Müharibə və qadın", Təranə Verdiyevanın "Vətən savaşında Azərbaycan anası", Fatimə Qurbanovanın "Qarabağ müharibəsi:Tarix yazan qəhrəmanlar", Nailə Mirzəyevanın "AMEA Gəncə Bölməsi əməkdaşları Vətən müharibəsində", Türkan Verdiyevanın "Tarixdə ilklərə imza atmış Azərbaycan qadınları" mövzusunda məruzələri dinlənilib.

Tədbirin sonunda akademik Fuad Əliyev konfransa yekun vuraraq tədbirin əhəmiyyətini yüksək dəyərləndirib dərin məzmunlu, tarixi faktlar və elmi dəlillərlə zəngin olan məruzələrin toplanıb, monoqrafiya şəklində nəşr olunmasını tövsiyə edib.

# "Vətən müharibəsi Gəncə şəhidləri" kitabı işıq üzü görüb

**Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə AMEA-nın Gəncə Bölməsində hazırlanan "Vətən müharibəsi Gəncə şəhidləri" adlı kitab çap olunub.**

Kitabda Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsi dövründə torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda döyüşlərdə şəhid olmuş şəxslər haqqında verdiyi Fərman və sərəncamlar, Vətən müharibəsi şəhidlərimizin və Gəncəyə raket hücumu zamanı həlak olan mülki şəxslərin tərcümeyi-halı öz əksini tapıb.




Həmçinin dövlət başçısının müharibə ərzində və ondan sonra dünyanın 30-dan artıq ölkəsinin aparıcı informasiya vasitələrinə verdiyi müsahibələrdən parçalar da yer alıb.

Vəsait şəhidlərimizin və günahsız yerə həlak olmuş mülki şəxslərin xatirəsinə dərin ehtiramın ifadəsi olmaqla yanaşı, həm də Vətən müharibəsi, onun qəhrəmanları və qələbəyə öz töhfəsini vermiş mülki insanlar haqqında gələcək tədqiqatlar üçün qiymətli mənbədir.

Qeyd edək ki, Gəncə şəhəri Birinci Qarabağ müharibəsində 364, Vətən müharibəsində 107 şəhid verib, həmçinin şəhərə raket hücumu nəticəsində 26 nəfər mülki şəxs həlak olub.

# "Nizami Gəncəvi poeziyasının Azərbaycan bəstəkarlarının vokal əsərlərində təcəssümü" kitabı çapdan çıxıb

**AMEA-nın Gəncə Bölməsinin Rəyasət Heyətinin üzvü, Əməkdar müəllim, sənətşünaslıq elmləri doktoru, professor Sevda Qurbanəliyevanın "Nizami Gəncəvi poeziyasının Azərbaycan bəstəkarlarının vokal əsərlərində təcəssümü" adlı kitabı çapdan çıxıb.**



Nəşr dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin poetik irsinin Azərbaycan bəstəkarlarının vokal əsərlərində təcəssümü məsələlərinə həsr olunub. Monoqrafiyada Nizami Gəncəvinin lirik əsərlərinə yazılmış 30-a yaxın musiqi əsəri təhlil edilərək onların ümumi cəhətləri qeyd edilir.

Nizami Gəncəvi irsinə müraciət edən Azərbaycan bəstəkarları yaratdıqları musiqi əsərləri ilə dünya musiqi mədəniyyətini daha da zənginləşdiriblər.

Kitabda son zamanlar Nizami Gəncəvi irsi və musiqinin vəhdəti mövzusunda nəşr olunan bir sıra kitabların adları da qeyd edilir. Monoqrafiyada müədqiqçilərin diqqətinə səbəb olacaq daha bir cəhət isə not nümunələrinin göstərilməsidir.

Professor Sevda Qurbanəliyevanın Nizami Gəncəvinin 880 illiyi münasibətilə nəşr olunan kitabı Nizami irsinin təbliğinə, milli-mənəvi dəyərlərimizin qorunmasına, konsert və tədris repertuarlarında təqdim edilən əsərlərdən geniş istifadə olunmasına xidmət edir.

# Polimer Materialları İnstitutunun əməkdaşlarının yeni kitabı nəşr olunub

**Polimer Materialları İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Bəxtiyar Məmmədovun və müəssisənin Elektro- və bioaktiv polimer materialları laboratoriyasının aparıcı elmi işçisi, kimya üzrə fəlsəfə doktoru Rəna Əhmədovanın "Aromatik amin və hidroksil qrupları saxlayan polikonyuqə olunmuş oliqomerlər və birgəpolimerlər" adlı kitabı nəşr olunub.**



